# İNSANLAR VƏ KƏSƏYƏNLƏR

(ingilis dilindən tərcümə edən
Mirsadiq Mircəfər oğlu Cəfərov)

Redaktor f.e.n.,dos., Ə.H.Əmirova

Rəyçilər f.e.n.,dos., Ç.M.Qaraşarlı

b.m. F.H.Kərimov

Amerikan yazıçısı Con Steynbek tərəfindən yazılmış və oricinaldan Azərbaycan dilinə tərcümə olunan bu kitabda gənclərin iş tapa bilməməsindən, iş tapanda isə həmin işdən maddi cəhətdən kifayət qədər yararlana bilməməsindən, evlənmək eləcə də ev-eşik, torpaq sahəsi almaq iqtidarında olmamasından bəhs olunur.

# İNSANLAR VƏ KƏSƏYƏNLƏR

## MÜNDƏRİCAT

I FƏSİL ………………………………………………… 3
II FƏSİL ……………………………………………20
III FƏSİL ……………………………………..……….. 40
IV FƏSİL …………………………………..……63
V FƏSİL ………………………………………… 91
VI FƏSİL …………………………………………

Bir neçə kilometr cənuba tərəf irəlilədikcə, Salinas çayı daha sakit axır, sahilləri getdikcə yaşıllaşırdı. Çayın bir tərəfində Qabilan dağlarının şiş qayaları, o biri tərəfində isə yaşıl ağaclar vardı. Ağacların altında, qumlu sahildə yarpaqlar yeri elə örtmüşdü ki, sanki yerə salınmış xalçaya bənzəyirdi. Axşamlar dovşanlar kolların, otların arasından çıxaraq qumlu sahildə gəzişir, marallar isə çaya su içməyə gəlir, kolların, ağacların arasındakı cığırla isə oğlanlar çimməyə gəlirdilər.

İsti günün axşamı zəif əsən külək əsərək yarpaqları tərpədirdi. Kölgə get-gedə uzanırdı. Qumlu

sahildə gəzişən dovşanlar çığırla yeriyən adamların səsini eşitcək öz yuvalarına qaçmağa cəhd göstərirdilər.

Bir-birinin ardınca gedən iki nəfərin addım səsləri buralara çökən sükutu pozdu. İrəlidə gedən qısa boylu, cəld hərəkətli, qara sifətli və iti baxışlara malik idi. Arxada gedən isə yekəpər, iri sifətli, geniş solğun gözləri, enli kürək bir oğlan idi. Onun ağır yerişi onu ayıya oxşadırdı. Hər ikisi qara, nimdaş paltarda idilər. İrəlidə gedən bir qədər açıqlıqda dayandı, arxadakı isə geri qaldığından, ona çatmaq üçün iri addımlarla irəliləməyə başladı. İrəlidəki şlyapasını başından götürüb, alınının tərini sildi. İri cüssəli yoldaşı isə əlindəki çantasını yerə qoyub, su içmək üçün çaya yaxınlaşdı. Balaca boylu ona tərəf gedərək əsəbi halda dedi:

- Allah xatirinə, Lenni çox içmə. Keçən gecəki kimi yenə də xəstələnəcəksən.

Lenni su içməkdə davam edirdi. O, su içib qurtardıqdan sonra başını suya soxdu, sonra isə qumlu sahildə oturdu, saçından damcılayan damlalar isə onun kürəyini, paltarını isladırdı.

- Nə yaxşıdır, Corc, sən də bir az iç, o, sevinc içərisində dedi.

Corc çantasını yerə qoyaraq dilləndi:

- Mənə elə gəlir ki, bu içməli sudur. Təmiz suya oxşayır.

Lenni sudan bir ovuc götürüb Corca göstərdi.

- Bax, Corc, gör necə də yaxşı sudur.

Corc dizi üstə suyun, kənarında əyilərək, ovcu ilə su içməyə başladı. O, bir-iki ovuc su içdikdən sonra üzünü yudu və qumun üstündə dizlərini qucaqlayaraq oturdu. Ona baxan Lenni Corcu yamsılayırmış kimi o da dizlərini qucaqlayıb oturdu əşlyapasını gözlərinin üstünə çəkdi.

Corc gözlərini süzərək axan çaya baxırdı. Onun gözləri günün istisindən qızamışdı.

O, acıqlı-acıqlı dedi:

- Biz belə isti havada dörd mildən çox yol gəlmişik, lənətə gəlsin bu istini.

Lenni ona utancaqlıqla baxdı və müraciət etdi.

- Corc?

- Hə, nə istəyirsən?

- Biz, hara gedirik, Corc?

Corc yerindən cəld qalxaraq Lenniyə əsəbi halda dedi?

- Sən artıq hər şeyi yaddan çıxarmısan? Mən sənə neçə dəfə deməliyəm? Aman Allah, sən lap balaca uşaq kimisən!

- Mən çalışırdım ki, yadımdan çıxmasın, amma yenə çıxdı.

- Yaxşı … yenə deyəcəm. Daha başqa işim-gücüm yoxdur elə bütün günümü sənə belə-belə şeyləri deməklə keçirirəm, amma sən də deyilənləri yaddan çıxarırsan.

- Neynim, Corc, ha çalışdım yadıma salam, amma bir xeyri olmadı. Təkcə dovşanlar yadımdadır.

- Elə yadında qalan təkcə dovşanlardı? Yaxşı, onda diqqətlə qulaq as və yadında saxla!

Hovard küçəsində taxta üzərinə qoyulmuş alətlərə baxdığımız yadındadır, Lenni?

Lenninin sifətində gülüş cizgiləri göründü.

- Niyə ki, Corc, yadımdadı. Nə olsun ki? Bizim yanımızdan bir neçə qızın keçdiyi də yadımdadır.

- Bura bax, Lenni, yadındadırmı Murey və Rediklə gəzməyimiz, onlar bizə işə daxil olmaq üçün kağızlar və eləcə də avtobus biletləri verdilər.

- Hə, Corc, indi yadıma düşdü – deyə o əllərini cəld surətdə ciblərinə apardı – Corc mənimkilər yoxdur, mən onları itirmişəm.

O, yerə göz gəzdirməyə başladı.

- Tapa bilmədin, eləmi? Sən lam balaca uşaqsan. Mənimkilərin hər ikisi cibimdədir. Onu bil ki, sənə öz iş kağızlarımı gəzdirməyə verməyəcəm.

Lenni dişlərini ağardaraq dedi:

- Mənə elə gəlir ki, onu yan cibimə qoymuşdum.

O, əlini yenidən cibinə apardı.

Corc ona iti nəzərlə baxdı.

- Sən cibindən nə çıxaracaqsan ki?

- Mənim cibimdə heç nə yoxdur.

- Mən bilirəm orada heç nə yoxdur. Sənin əlində nəsə var.

Göstər görüm əlindəkini…

Doğrudur heç nə yoxdur, Corc.

- Yaxın gəl, əlindəkini də mənə ver.

Lenni yumulmuş əlini Corca tərəf uzatdı.

- Təkcə siçandır, Corc

- Siçan? Diri siçan?

- Yox, ölü siçandır,Corc. Onu mən öldürməmişəm. Elə ölüsünü tapmışam.

- Ver mənə, - deyə Corc acıqlandı.

- Qoy qalsın, Corc.

- Yox, ver mənə!

Lenni onun sözünə baxdı və Corc ölmüş siçanı ondan alıb çayın o biri tərəfindəki kolluğa atdı.

- Ölmüş siçan sənin nəyinə gərəkdir, axı?

- Mən onu bayaq gəzəndə tapmışdım, Corc.

- Sən gəzib siçan tapmalı deyilsən. Yaxşısı budur ki, yadına sal görüm, biz hara gedirik?

Lenni bir az duruxdu və dedi:

- Yenə yadımdan çıxdı, Corc.

- Aman allah, bura bax, diqqətlə qulaq as və yadında saxla! Biz böyük bir fermerin təsərrüfatına işləməyə gedirik. Zəmidə işləyəcəyik.

- Hə, yadıma düşdü, Corc.

- Bizim getdiyimiz fermer təsərrüfatına təxminən bir milə qədər məsafə qalıb. Bura bax,mən fermerə iş kağızlarını verəndə sən heç nə danışma. Yalnız sakit dayanarsan və heç nə deməzsən. Əgər o bilsə ki, sən necə də qanmazsan, onda bizi işə götürməz. Biz iş almazdan əvvəl o səninlə söhbət etsə, onda batdıq, düzünü deyim ki, iş ala bilməyəcəyik. Başa düşdün?

- Hə, başa düşdüm, Corc.

- Yaxşı, de görüm, elə ki, biz sahibin yanına gedəndə, onda sən nə edəcəksən?

- Mən ….mən, - Lenni fikirləşərək, mən heç nə deməyəcəyəm.

- Bax belə, indi yaxşı oğlansan. Amma bunu yaddan çıxarma, ha!...

- Çalışacağam, Corc.

- Mənə belə gəlir ki, Lenni, sən orada pis-pis işlər də görməyəcəksən, eləmi? Yoxsa, bizi zəmidən qovub çıxaracaqlar.

- Mən bunu yaddan çıxarmaram, Corc.

Corc onun bu sözlərindən sevindi, qumun üzərində uzandı və əllərini bir-birinə keçirərək başımın altına qoydu. Lenni də onu yamsılayırmış kimi elə etdi.

- Aman Allah, sən başdan ayağa dərd-sərsən. Əgər səni özümlə hərləməsəydim, sənin üçün çox çətin olacaqdı. Mən özüm çox yaxşı dolanardım, hətta bir qızla da evlənərdim, - deyə Corc dərdli-dərdli danışmağa başladı.

Bir müddət Lenni danışmadı, sonra isə böyük ümidlə dedi:

- Biz böyük bir fermerin təsərrüfatına işləməyə gedirik, Corc.

- Deyəsən, bunu başa düşmüsən. Onu da deyim ki, biz indi burada yatmalıyıq.

Günəşin şüaları yalnız Qabilan dağının başında öz əksini tapırdı.

- Corc, nə üçün biz fermerin təsərrüfatına gedib orada şam etmirik? Orada ki, yemək var…

Corc onun tərəfə çevrildi.

- Sənin üçün nə fərqi var. Mən burada xoşlayıram. Sabah biz işləməyə başlayacağıq. Amma bu gün burada yatmaq istəyirəm.

Lenni ayağa qalxıb dedi:

- Bəs biz şam etməyəcəyik?

- Əgər sən quru odunlardan yığmısansa, onda edəcəyik. Mənim torbamda lobya konservləri var. Sən ocağı hazır elə. Odunları bir yerə yığ, mən sənə kibrit verəcəyəm. Konservləri qızdırmaq lazımdır.

- Mən tomatlı konservi daha çox xoşlayıram, Corc.

- Neynim, mənim tomatlı konservim yoxdur. Get odun gətir, yoxsa qaranlıq düşəcək.

Lenni ayağa qalxdı və kolların arası ilə gəzişməyə başladı. O, əlində balaca bir çubuq gəzdirirdi. Uzaqdan ona fikir verən Corc dedi:

- Lenni, o siçanı mənə ver!

- Hansı siçanı, məndə heç bir siçan yoxdur.

Lenni bir az tərəddüd etdi, Corc isə ona bir daha təkidlə dedi.

- Sən o, siçanı mənə verəcəksən yoxsa yox? Elə isə səni vuracağam ha!...

- Sənə nə verim, Corc?

- Mən həmin o siçanı istəyirəm.

Lenni əlini cibinə apardı və sanki danışmağa dili olmadı. Gec də olsa dilləndi:

- Mən bilmirəm nə üçün bu siçanı saxlamalıyam.

Bu ki, heç kimin deyil. Onu yoldan tapmışam.

Corc siçanı ondan alıb dedi:

- Bu sənin nəyinə lazımdır?

- O mənə lazım deyil, Corc, istəyirsən tulla getsin.

Corc siçanı bacardıqca uzağa – kolluğa atdı və əllərini yudu.

- Sən axmağın birisən, Lenni. Mən sənin ayağının yaş olduğundan bilirdim ki, sən onu çayın o biri tərəfindən tapıb gətirmişəm. Elə bayaqkı siçandır.

O, Lenninin dodaqaltı deyinməsini və ağlamağını eşitdi. Bu zaman Corc dedi:

- Aman Allah, sən böyük oğlansan gör nə edirsən?!

Lenni dodaqlarını çeynəyir və gözlərindən yaş damcılayırdı.

- Hə, Lenni! – Corc əlini onun çiyninə qoyaraq sözünə davam etdi, - mən bunu mənasız yerə demirəm. Bu siçan təzə deyil, sonradakı yaxşı yedə saxlamamısan. Əgər sən başqa bir siçan tapsan və o, təzə olsa, onda onu saxlamağa icazə verərəm.

Lenni qumun üzərində oturaraq dedi:

- Mən başqa bir siçan yeri bilmirəm. Yadımdadır ki, mənə çox vaxt siçanı bir xanım verərdi. İndi isə o xanım burada yoxdur.

- Xanım?! Sən o xanımın kim olduğunu bilmirsən? O, sənin Klara xalandır. Son zamanlar onlar siçanları sənə vermirdi, çünki sən onları öldürürdün.

Bu sözləri eşitcək Lenni ona qəmgin halda baxdı.

- Onlar çox balaca idilər. Mən onları saxlayırdım və çox keçmədi ki, onlar mənim barmaqlarımı dişləyirdilər. Ona görə də öldürürdüm. Amma mən istəyirəm ki, bizim dovşanlarımız olsun, Corc, onlar siçanlar kimi balaca deyillər.

- Sən mənə odun gətirəcəksən, yoxsa yox?

Oralarda odun çoxdur, yığ gətir ocaq yandıraq.

Lenni ağacların altından quru budaqları və yerə tökülmüş yarpaqları qoca palıd ağacının altına toplayırdı. Demək olar ki, qaranlıq düşmüşdü. Göyərçinlər uçduqca qanadlarının səsi aydınca

eşidilirdi. Corc Lenniyə ocağı yandırmaqda kömək etdi, sonra isə ocağın yaxşı yanması üçün odunları tərpətdi. Ocaq alovlanmağa başladı. Corc çantasından üç lobya konservi çıxartdı və ocağın kənarına qoydu.

- Burada dörd nəfər üçün konserv var – dedi. Lenni ocağın o biri tərəfində oturub Corca baxaraq dedi:

- Mən tomatlı konserv xoşlayıram.

- Neynim, mənim tomatlı konservim yoxdur.

Corc yenə də dərdli – dərdli sözünə davam etdi.

- Əgər mən tək olsaydım, mənim üçün yaşamaq asan olardı, özümə iş tapardım heç bir narahatçılığım olmazdı. Mən istədiyim yerdə yaşaya bilərdim, istədiyim mehmanxanada gecələyə bilərdim. İndi də burada qalmazdım.

Lenni gah ocağa, gah da acıqlı Corca baxırdı. Onun üzündə qəzəb hiss olunurdu.

- İndi mənim nəyim var? Mənə qalan sənsən. Sən özün işini işləyə bilmirsən və mən də sənə görə işimi itirirəm.

Corc danışdıqca səsini qaldırırdı.

- Sən pis işlərindən qalmırsan. Mən də istəyirəm ki, sən belə pis əməllərdən əl çəkəsən.

Onun birdən elə bil hirsi soyudu və Lenninin dolmuş gözlərinə baxdı. Qaranlıq olmasına baxmayaraq, ocağın alovu ağacları, kolları işıqlandırırdı.

Lenni yavaş-yavaş Corca yaxınlaşdı. Corc konservlərin o biri üzünü çevirdi ki, yaxşı isinsin.

- Corc, - deyə Lenni ciddiliklə müraciət etdi, lakin Corc cavab vermədi. Lenni yenə müraciət etdi:

- Corc?

- Nə istəyirsən?

- Mən axmağam, Corc, tomatlı konserv istəyirəm.

- Əlbəttə, burada tomatlı konserv olsaydı, bir az yeyərdik.

- Mən heç birini yemirəm, Corc.

Corc ona bir söz demədi, bir müddət fikirləşəndən sonra dedi:

- Mən ən yaxşı vaxtımı sənin olmamağında düşünürəm.

- İstəyirsən, Corc, mən çıxım gedim, sən tək qal…

- Səndən soruşuram, hara gedə bilərsən?

- Yer tapa bilərəm. Mən elə bu dağlarda mağara tapacağam.

- Doğrudan? Necə yəni? Bəs sən nə tapıb yeyəcəksən?

- Tapacağam, Corc, mən günəş altında uzanacağam, heç kimi incitməyəcəyəm. Əgər mən ölü siçan tapsam, saxlayacağam. Onu məndən heç kim almayacaq. Mən hər vaxt gedə bilərəm.

- Yox, deyəsən mən axmaqladım, Lenni! Mən istəyirəm ki, sən mənimlə qalasan.

O bir az dayandıqdan sonra sözünə davam edərək dedi:

- Mən nə edəcəyimi sənə deyirəm, Lenni, mən sənə küçük verəcəyəm, o böyük olduğundan bəlkə də onu öldürməyəcəksən. O, siçandan yaxşıdır.

- Əgər mənim qalmağımı istəmirsənsə, yenə deyirəm, dağlara gedib orada yaşaya bilərəm. Görürəm sən bunu demək istəyirsən.

- Mən istəyirəm ki, sən mənim yanımda qalasan, ay axmaq. Sənin Klara xalan da çıxıb getməyini istəməzdi.

Corcun səsi daha da dərinləşir, sözləri ritmik olaraq təkrar edirdi. Bu sözlərin o əvvəllər də bir – neçə dəfə demişdi.

- Bizim kimi oğlanlar dünyada yalqız adamlardır. Onların nə ailəsi, nə də bir balaca yeri yoxdur.

Lenni sevincək soruşdu.

- De görüm bəs biz necəyik, hə?...

- Biz belə deyilik, bizim gələcəyimiz var.

Başqa oğlanlar əzab-əziyyət içərisindədilər, biz isə yox.

Lenni onun sözünü kəsərək:

- Biz isə yox? Bəs nə üçün? Çünki, … çünki biz bir-birimizə qayğı göstəririk, ona görə deyirsən, Corc? Davam elə, Corc!

- Sən bunu ürəkdən dedin. İndi hər şeyi yaddan çıxart, bir gün gələr, bizim birlikdə torpağımız olar. Biz balaca bir ev tikərik, inəyimiz və bir neçə donuzumuz da olar.

- Bizim dovşanlarımız da olacaq, eləmi Corc?

Sözünə davam et Corc! De görüm bizim bağımız necə olacaq, bizim dovşanlarımız qəfəslərdə nə edəcəklər? Mən deyərdim ki, qatığımız o qədər bərk olacaq ki, hətta biz onu güclə kəsəcəyik. Bu haqda danış, Corc.

- Daha nə danışım sən bunların hamısını bilirsən.

- Yox, sən de. Sənin deməyinlə, mənim deməyim bir deyil. De görüm biz dovşanları necə saxlayacağıq?

- Hə bizim tərəvəz əkmək üçün sahəmiz, dovşanlar və toyuq cücəmiz üçün yerimiz olacaq.

Qışda ocaq yandırıb evdə oturacaq və çöldə yağan qara, yağışa baxacağıq.

O, cibindən cib bıçağını çıxardı, konservlərdən birini götürüb ağzını açdı və Lenniyə verdi. Sonra ikincisini açdı. Daha sonra yan cibindən iki qaşıq çıxarıb birini Lenniyə, birini isə özünə götürdü.

O, ağzını lobya ilə dolduraraq çeynəməyə başladı. Bir neçə lobya, Lenninin ağzının kənarlarından yerə tökülürdü. Corc əlindəki qaşığı ağzına apararaq soruşdu:

- Sabah təsərrüfatın sahibi sənə suallar verəndə nə deyəcəksən?

Lenni çeynəməyini dayandırdı. Onun üzündə ciddilik ifadəsi göründü.

- Mən… mən… demək – mən bir söz deməyəcəm.

- Yaxşı oğlansan! Xoşum gəldi, Lenni! İndi sən yaxşıya doğru gedirsən. Biz torpaq olanda mən sənə dovşanlar saxlamağa icazə verəcəm. Sən xüsusilə bunu yaxşı yadında saxla.

Lenni fərəhlə dedi:

- Çalışacağam ki, yadımda saxlayım.

- Bura bax, Lenni, sən ətrafa yaxşı-yaxşı bax və bu yerləri yaddan çıxartma. Biz gedəcəyimiz fermer

təsərrüfatı həmin çayın kənarı ilə burdan cəmisi bir mil uzaqdadır.

- Çalışaram, Corc, bunu yaddan çıxarmayam.

Corc ağzındakı lobyaları çeynəyə-çeynəyə sözünə davam etdi:

- Elə ki, bir çətinliyə düşdün, bax gəlib kolların arasında gizlənərsən.

- Bu kolların arasıda gizlənim, - deyə Lenni yavaşca öz-özünə təkrar etdi.

- Gizlənərsən bu kolların arasında mən gəlincə. Bunu yadında saxlaya bilərsənmi, Lenni?

- Saxlayaram, Corc. Sən gəlincə bu kolların arasında gizlənəcəyəm.

- Amma sən çalış mənə heç bir əziyyət vermə, yoxsa sənə dovşanları saxlamağa qoymayacağam.

Corc əlindəki boş konservi kolluğa atdı.

- Mən sənə heç bir əziyyət verməyəcəm, Corc, heç bir söz deməyəcəm.

- Yaxşı, çantanı bura gətir, biz indi yatacağıq. Ocağa daha odun qoyma, qoy sönsün.

Onlar qumun üzərində özlərinə yatmaq üçün yer düzəltdilər. Ocağın közərtisi külək əsdikcə parlayır, gah da yox olurdu. Təzəcə uzanmışdılar ki, Lenni soruşdu:

- Corc, sən yatmısan?

- Yox, nə deyirsən?

- Biz rəngbərəng dovşanlar taparıq, Corc.

- Əlbəttə, qırmızı, yaşıl, mavi. Özü də milyonlarla, - deyə Lenninin sözlərinə cavab olaraq dedi.

- Cod tüklülərindəndə, Corc.

- Əlbəttə, Lenni. Daha bəsdir, indi yat.

Ocağın odu daha közərmirdi. Ağacların yarpaqları yavaş əsən mehin təsirilə sanki pıçıldaşır və elə bil gecənin bir vaxtında bir-birinə nağıl danışırdılar.

xxxx

Yataqxana uzun və ensiz bir bina idi. Divarlar azacıq ağardılmış,döşəmə rənglənməmişdi. Yataqxananın üç pəncərəsi, bir enli qapısı, səkkiz ensiz çarpayısı var idi ki, bunların beşinin üstünə yorğan örtülmüş, üçünə isə yorğan örtülməmişdi. Hər çarpayının yanına yeşikdən düzəldilmiş şkaf qoyulmuşdu. Bu şkaflardan sabun, diş tozu, üz qırxmaq alətlərini qoymaq üçün istifadə etmək olardı. Şkafa bəzi dərmanlar, daraq və s. şeylər də qoymaq olardı. Otağın küncünə bir pilətə, ortasında isə böyük bir stol qoyulmuşdu. Stolun üstündə kart, ətrafında isə oyunçuların oturması üçün yeşiklər düzülmüşdü.

Səhər saat on idi. Günəşin səhər şəfəqləri otağa düşürdü. Taxtadan düzəldilmiş iri qapı qəfil açıldı. İçəri ucaboy, enliküək qoca bir kişi daxil oldu. O, mavi rəngə çalan cins şalvar geyinmişdi, sol əlində isə böyük bir süpürgə tutmuşdu. Onun arxasınca Corc, ondan arxada isə Lenni içəri daxil oldular.

- Sahib sizi keçən gecə gözləyirdi, - deyə qoca dilləndi. Sonra isə onlar üçün hazırlanmış çarpayıları göstərdi. Corc döşəyin olub-olmadığını müəyyən etmək üçün yorğanı qaldırdı. Onun çarpayısının yanına qoyulmuş şkafın ağzını açıb baxdıqda orada balaca,

sarı rəngli zibilqabı gördü. O, zibilqabını götürərək soruşdu.

- Bu nə olan şeydir?

- Mən bilmirəm, - qoca cavab verdi və zibilqabını götürmək üçün əyildi, - necə deyim, sizdən əvvəlki yaxşı və təmizkar oğlan idi. O həmişə əllərini yemək yeyəndən sonra da yuyardı.

Get-gedə acıqlanan Corc Lenniyə öz çantasını qonşu çarpayının üstünə qoymağı və oturmağı işarə etdi. Lenni mat qalmış kimi Corca baxırdı. Qoca sözünə davam edərək dedi:

- Sizə nə deyim… Onun adı Vitey idi. O yemək yeyərkən stolun üstünə bircə damcı da olsa ləkə salmazdı. Bir sözlə, demək istəyirəm ki, o, təmizlik sevən oğlan idi. O, elə indicə getdi.

- Mən siz deyənləri görməmişəm. Bir də deyirsiniz ki, o indicə getdi? Corc soruşdu.

- Bəli … o indicə getdi, - deyə qoca cavab verdi.

Corcun az da olsa hirsi soyudu. O, çantasının ağzını açıb şkafa qoyulası şeyləri-üzqırxanı, sabunu, dərman dolu butulkanı, kremi və toqqasını şkafın içərisinə qoydu. Lenni də onun kimi etdi. Kənarda dayanmış qoca dedi:

- Məncə, sahib bir neçə dəqiqədən sonra bura gələcək. O, sizi çox gözləyib. Biz səhər yeməyi yeyərkən içəri girib sizi soruşdu və yerlərinizi göstərdi.

- Sahib necə adamdır? – Corc soruşdu.

- O, yaxşı yoldaşdır. Hərdən bir acıqlanmağı var, amma ümumiyyətlə, pis adam deyil.

Elə ki, Milad bayramı gəlir, böyük bir şüşədə viski gətirib deyir:

- Hə için uşaqlar, Milad ildə bir dəfə olur.

- Necə yəni yekə bir qabda?! Corc heyrətləndi.

- Bəli, cənab – deyə qoca sözünü tamamladı.

Lenni çarpayısını yığışdırıb qurtarmışdı ki, qapı açıldı və içəri bəstəboy bir adam daxil oldu. O, mavi rəngli cins şalvar, qara və yaxası düymələnməmiş palto geyinmişdi. Onun görkəmindən hiss olunurdu ki, əməksevər adam deyil. Qoca xidmətçi cəld ona baxıb, oğlanların gəldiyini bildirdi və çıxıb getdi. Sahib kiçik və cəld addımlarla irəlilədi və soruşdu:

- İş üçün kağızlarınızı gətirmisinizmi?

Corc cibindən iş kağızlarını çıxarıb sahibə verdi. Sahib gözlərini süzərək soruşdu:

- Sənin adın nədir?

- Corc Milton.

- Bəs sənin adın nədir?- deyə sahib üzünü Lenniyə tutub soruşdu.

- Onun adı Lenni Smoldur – deyə Corc cavab verdi.

Sahib onların hər ikisinin adlarını kitabçasını qeyd edib daha sonra soruşdu:

- Harada işləmək istəyirsiniz?

- Zəmidə – deyə Corc cavab verdi.

Sahib Lennini şəhadət barmağı ilə göstərib dedi:

- Deyəsən çox danışmaq deyil, elə deyilmi?

- Bəli, amma yaxşı işçidir, öküz kimi güclüdür.

Lenni öz-özünə güldü və onun sözlərini yavaşca təkrar etdi. «Öküz kimi güclüdür».

Corc ona baxdı və Lenni dərhal özünü yığışdırıb başını aşağı saldı. Sahib ondan soruşdu:

- Qulaq as, Smol! Nə bacarırsan?

Lenni başını qaldırıb kömək üçün Corca baxdı. Corc dedi:

- O yaxşı səpinçidir, yaxşı becərmə işi aparır. O, hər şey edə bilir. Siz nə tapşırsanız onu da edər.

- Nə üçün ona imkan vermirsən ki, danışsın? Nə üçün özünü tez irəli atırsan? - Deyə sahib Corcdan soruşdu.

- Mən… düzü demək istəyirəm ki, o, yaxşı işçidir.

Sahib əlindəki kitabçanı ehmalca cibinə qoyub yenə soruşdu:

- De görüm, onu neçəyə satırsan?

- Bəli?

- Deyirəm ki, bu oğlanı neçəyə satırsan?

- Mən… Əlbəttə… Mən… Nə üçün fikirləşirsiniz ki, mən onu satıram?

- Mən heç vaxt görməmişəm ki, bir oğlan başqa birisi üçün bu qədər əziyyət çəksin. Mən bilmək istəyirəm, görüm burada sənin nə marağın var?

- O, mənim əmim oğludur. Anası tapşırıb ki, ondan muğayat olum. Düzü o, uşaq olan vaxt at təpiyi ilə onun başından vurub. Onda elə bir çatışmamazlıq yoxdur. Siz ona nə tapşırsanız onu da edər.

- Allah bilir, bəlkə də onun başında beyni yoxdur ki, firkirləşsin görüm arpa dolu kisəni nə qədər yerə səpmək olar. Nə üçün siz bundan əvvəlki iş yerinizi tərk etmisiniz?

- İşimizi görüb qurtarmamışıq, - Corc deyə cavab verdi.

- Nə iş idi belə?

- Biz… biz orada quyular qazırdıq.

- Yaxşı, amma özünü belə irəli verməyə çalışma. Mən onu da deyim ki, əvvəllər burada çox ağıllı

oğlanlar işləirdilər. Nahardan sonra taxıl səpənlər briqadasına daxil olarsınız. Daha doğursu, Slimin briqadasına…

- Slimin?

- Hə, Slimin, ucaboy oğlandır. Onu nahar vaxtı görəcəksən, - deyə sahib onları bir daha nəzərdən keçirdikdən sonra çaxıb getdi.

Sahibin ayaq səsləri kəsilən kimi Corc Lenniyə dedi:

- Hə, deməli, sən heç bir söz demədin, əgər danışsaydın biz işə girə bilməyəcəkdik. Az qala danışmağınla biz işimizi itirərdik.

Lenni ümidsizliklə əllərinə baxdı.

- Mən yadımdan çıxarmamışdım, Corc.

- Mənə elə gəlir ki, Lenni, o bizi gözdən qoymayacaq, ona görə də biz ehtiyyatlı olmalıyıq və səhvə yol verməməliyik. Sən bundan sonra da susmalısan, Lenni.

- Corc, mənim başıma at təpiyi ilə vurmayıb, eləmi?

- Mən səni xilas etmək üçün dedim.

- Sən deyirsən ki, mən sənin əmin oğluyam, Corc?

- Hə, bu yalandır. Əgər sən mənim qohumum olsaydı, indiyə özümü güllə ilə çoxdan atmışdım – o birdən dayandı, qapıya tərəf addımlayıb çölə baxdı – Kimsə bizə qulaq asır deyəsən! – dedi.

Qoca xidmətçi yavaş-yavaş içəri daxil oldu. Onun əlində süpürgə yanında isə bir it var idi.

- Mən sizə qulaq asmırdım. Elə indicə gəlib itimlə birlikdə kölgədə dayanmışdım.

- Siz qulaqlarınızı şəkləyib bizim işimizə qarışırsınız. Mən istəmirəm ki, kimsə bizim işimizə burnun soxsun, - deyə Corc acıqlandığını bildirdi.

- Mən elə indicə evi süpürüb bura gəldim və sizin nə danışdığınızı eşitməmişəm. Mən hətta sizin danışığınızla belə maraqlanmamışam.

- Elə isə içəri gəl, bir az otur.

Qoca içəri girdi, süpürgəni divara söykəyib soruşdu.

- Hə, sahib xoşunuza gəldi?

- Yaxşıdır. Mənə belə gəlir ki, o yaxşı adamdır.

- Yaxşı adamdır, doğudan da, - deyə xidmətçi qoca onunla razılaşdı.

Bu vaxt bir cavan oğlan içəri girdi. O, arıq, qonur sifət, qonur gözlü, qıvrım saçlı bir oğlan idi. Onun sol

əlində fəhlə əlcəyi var idi və sahib kimi uzunboğaz çəkmə geyinmişdi.

- Sahibi görmüsünüz? – deyə o soruşdu.

- İndicə burdaydı, Köli – deyəsən o mətbəxə getdi, - deyə qoca xidmətçi cavab verdi.

- Çalışacağam ona çatam, - o dedi və yeni gəlmiş adamları görcək dayandı və soruşdu.

- Siz sahibi gözləyirsiniz?

- Biz indicə gəlmişik, - deyə Corc cavab verdi.

- Qoy böyük cavab versin.

Bunu eşitcək Lenni bir qədər sıxıntı keçirdi. Bu zaman Corc yenə də dilləndi.

- Elə təsəvvür edin ki, o danışmaq istəmir.

Köli əlini dizinə vuraraq dedi:

- Allah haqqı, o, danışmaq istəyir, amma danışmır. Birdəki bunun səbəbi nədir?

- Biz birlikdə gəzirik, - deyə Corc soyuqqanlıqla cavab verdi.

- Hə, belə de.

- Bəli, bu belədir.

- Sən bu böyük oğlanı qoymayacaqsan ki, danışsın?

- O nə istəsə danışa bilər, əlbəttə, əgər istəsə, - Corc Lenniyə baxaraq dedi.

- Biz indi gəlmişik, - deyə Lenni dilləndi və ciddi surətdə cavab verdi.

- Hə, elə isə gələn dəfə səndən soruşanda, sən cavab verərsən, eşitdin?! – deyə Köli hökmlə dedi və çıxıb getdi.

Corc Lenniyə, sonra isə xidmətçiyə baxdı.

- Deyin görüm Lenninin nə günahı var ki?

Qoca xidməçti qapıya tərəf boylandı.

Adam olub-olmamasını müəyyən etmək üçün hər tərəfə göz gəzdirdi və söhbətə başladı.

- O, sahibin oğludur. Onun adı Kolidir, özü də boksçudur.

- Hə, qoy olsun boksçu, Lenni ilə belə danışmamalıdır. Lenni ona heç nə eləməyib.

- Hə… Sənə nə deyim, düzü, Köli başqa balaca oğlanlar kimi boyca özündən böyük oğlanlara nifrət edir. O, həmişə böyük oğlanlarla mübahisə edir. O, belələrini görəndə dəli olur, çünki özü böyük deyil. Sən balaca oğlanları həmişə belə görmüsən, elə deyilmi?

- Əlbəttə, mən belə cığal balaca oğlanları çox görmüşəm. Amma yaxşı olardı ki, Lenni haqqında pis fikirdə olmasın. Lenni boksçu deyil, yeri gəlsə ona elə vurar ki, başı fırlanar.

- Köli yaman boksçudur. Təsəvvür edin ki, o, böyük-böyük oğlanların başına elə tullanır ki, gəl görəsən. Hamı deyir ki, görün Köli necə oğlandır – deyə qoca söhbətinə əlavə etdi.

Corc qapıya baxa-baxa dedi.

- Hə, yaxşısı budur ki, o Lennidən özünü gözləsin. Lenni dalaşqan olmasa da güclü və cəlddir. Onu da deyim ki, Lenni fənd işlətməyi bilmir – deyə o stola tərəf yeridi və yeşiklərin birinin üstündə oturdu və kartları əlinə götürüb qarışdırmağa başladı. Qoca xidmətçi də başqa bir yeşiyin üstündə oturdu.

- Köliyə mən dediklərimin,heç birini deməyin ha!... yoxsa dərini soyar. Biz ona heç nə edə bilmərik, çünki o, sahibin oğludur – dedi.

Corc kartı kəsdi və paylamağa başladı.

- Bu oğlan mənim fikrimcə, küçüyü xatırladır.

- Mənə belə gəlir ki,o bundan da pisdir. O, iki həftə bundan əvvəl evlənib. Arvadı sahibin evinin yuxarı mərtəbəsində yaşayır. Köli evlənəndən sonra özünü yaman öyür.

- Yəqin özünü arvadına göstəri də…

Xidmətçi qoca bunu eşitcək qeybətə başladı:

- Mən gördüyümü görmüşəm, siz özünüz də görəcəksiniz, - deyə qoca söhbətini çox da uzatmadan

əlavə etdi, - Hələ Kölinin arvadını da özünüz görəcəksiniz.

Corc kartı yenə kəsdi və onu stolun üstünə qoydu.

- Yaxşıdır? – o soruşdu.

- Yaxşıdır… amma…

Corc kartları ilə tanış oldu.

- Bəs nədir,? – deyə o soruşdu.

- Mən demək istəyirəm ki, iki həftədir onlar evləniblər, amma Kölinin şalvarı bulaşıqdır. Onun arvadının Slimə göz yetirdiyini görürəm. Slim pis oğlan deyil. Hələ bu harasıdır, mən onun Karlsona da göz qoyduğunu görmüşəm. Mənə elə gəlir ki, Köli pozğunun birisi ilə evlənib, - deyə qoca sözünü tamamladı.

Qoca qapıya tərəf getdi, onun iti də yanında idi.

- Mən gedib su qoymalıyam ki, oğlanlar gələndə yuyunsunlar. Siz də arpa səpəcəksiniz?

- Hə…

- Siz Köliyə mən dediklərimin heç birini deməyin ha…!

- Yox, demərik.

- Siz özünüz ona nəzər yetirin, görün pozğun deyil ki? – bu sözləri deyib qoca çölə çıxdı.

Corc əlindəki kartları stolun üstünə qoydu və Lenniyə dedi:

- Bax, Lenni! Mən görürəm sən Köli sarıdan narahatsan. O, səni əzmək istəyir.

Lenninin gözləri bərəldi.

- Qoyma Corc, qoyma məni əzsin!

Corc ayağa qalxdı və onun yanına əyləşib dedi:

- Mən özüm belə oğlanlara nifrət edirəm. Belələrini çox görmüşəm, çalış heç bir səhvə yol verməyəsən. Sonra da kı, o sahibin oğludur, o hər cür sənə qalib gələ bilər. Bax, Lenni, həmişə ondan aralı gəz, onunla söhbət etmə. Əgər o bu otağa gəlsə, sən başqa otağa keçərsən. Belə edəcəksən ya yox, Lenni?

- Corc, mən ki, ona heç nə etməmişəm.

- Belə deməyin heç bir xeyri yoxdur. Bir sözlə, onunla yanbayan gəzmə. Yadında qaldı?

- Yaxşı, Corc, çalışacağam bir söz deməyim.

Taxıl zəmisində işləyənlərin bayırda səsi ucadan eşidilirdi. Adamlar bir-birini səsləyirdilər. Corc otaqda Lenni ilə yanbayan oturub xəyala dalmışdı. Lenni utana-utana soruşdu.

- Sən əsəbləşməmisən eləmi, Corc?

- Mən sənə hirslənməmişəm. Mən Köliyə hirslənmişəm. Ümid edirdim ki, birlikdə bir az maddi

vəziyyətimizi yaxşılaşdırardıq. Ola bilsin 100 dollar… Sən özünü Kölidən mütləq qorumalısan, Lenni!

- Çalışacağam, Corc. Mən bir söz demirəm.

- Ona fikir vermə, əgər səni vursa, qoy vursun.

- Nə etsin, Corc?

- Eybi yox, eybi yox… mən sənə dediyimi yaddan çıxarma. Məgər bu dediklərimi sən yaddan çıxarırsan?

Lenni ayağa qalxdı və onun üzündə fikir ifadəsi hiss olundu. O, qəmli-qəmli Corca baxdı.

- Əgər mən belə etməsəm, deməli, sən mənə dovşan saxlamağa icazə verməyəcəksən, hə?

- Mən onu nəzərdə tutmuram. Yadındamı biz keçən gecə harada yatmışdıq? Çayın kənarında, eləmi?

- Hə, yadımdadır. Mən ora getməli və kolların arasında gizlənməliyəm.

- Görürəm yadındadır, deməli, mən gəlincə orada gizlən və gözlə. Elə et ki, səni heç kim görməsin. Çayın kənarında təkrar et görüm!

- Çayın kənarında kolların arasında gizlənməliyəm.

Hər ikisi açılmış qapıdan, bir qızın həyətdə dayanıb içəri baxdığını gördülər. Onun iri gözləri, dolu və qırmızımtıl dodaqları vardı. Onun dırnaqları

manikürlənmiş saçı, burulmuşdu. O, pambıq parçadan tikilmiş paltar geyinmişdi.

- Mən Kölini axtarırıam, - deyə qız incə səslə dilləndi.

- Bir neçə dəqiqə bundan qabaq burada idi, - deyə Corc cavab verdi.

- Deyəsən, siz təzə gələnlərsiniz, elə deyilmi?

- Bəli

Lenni onu aşağıdan yuxarıya süzdü.

Qız özünün manikürləşmiş dırnaqlarına baxdı.

- Bəzən Köli burada olur, - deyə qız sözünə davam etdi.

- Hə, indi burada yoxdur, - Corc cavab verdi.

- Əgər burada yoxdursa onda mən başqa yerlərə də baxmalıyam.

- Əgər onu görsəm, deyərəm ki, siz onu axtarırsınız.

Qız gülərək başqa tərəfə üz tutdu. O, yolda Slimlə qarşılaşdı.

- Salam, Slim.

- Salam, gözəl!

- Mən Kölini axtarıram.

- Mən onu evinizə gedən gördüm.

Bu sözləri eşitcək qız tez evə tələsdi.

Corc Lenniyə baxaraq dedi:

- Aman Allah, Köli nə avaradır, hələ bir özünün arvadını axtarır.

- O çox gözəldir, - deyə Lenni onun sözünə qüvvət verdi.

- Lenni hələ də qapıdan onun arxasınca baxırdı. O, heyran olmuş kimi gülməyə başladı. Corc onu qapının ağzından çəkdi və qulağını dartdı.

- Qulaq as, axmağın biri, ona fikir vermə. Qoy nə edir etsin.

Lenni dartınaraq Corcdan aralandı.

- Mən ki, ona bir söz deməmişəm, Corc.

- Yox bir, bəs niyə arxasınca baxırsan? Sən ona baxma, başqa tərəfə bax, eşitdin!

- Mən heç nə etməmişəm, Corc.

- Özü də sən ondan gizlən, çünki o, siçan tələsinə bənzəyir. Qoy o tələyə Kölü özü düşsün, - deyə Corc Lenniyə başa saldı. Lenni birdən qışqırmağa başladı.

- Mən belə yeri xoşlamıram. Bura nə yerdir biz gəlmişik. Çıxıb getmək istəyirəm burdan, Corc.

- Başa düş, Lenni biz buraya pul qazanmağa gəlmişik, əlbəttə, əvvəl-axır çıxıb gedəcəyik, bacardıqca tez. İndi gedə bilmərik, eşidirsənmi? Əgər

biz burada balaca pul qazanıb, vəziyyətimizi yaxşılaşdırsaq, sonra Amerikan Rivəyə gedib orada gündə iki dollar qazanarıq və heç olmazsa cibimizdə bir şey olar.

Lenni Corca acizanə surətdə dedi:

- Gəl gedək, Corc.

- Biz qalmalıyıq. İndi isə sus. Oğlanlar bura gəlirlər.

Yuyunma otağından suyun şırıltısı eşidilirdi. Corc dedi:

- Bəlkə yuyunmağa gedək. Amma biz bulaşmamışıq, çünki, heç nə etməmişik.

Ucaboylu bir adam qapıda dayanmışdı. Onun başında şlyapa var idi. Başqa oğlanlar kimi o da bir qədər ağarmış mavi rəngli cins şalvar geyinmişdi. O, şlyapasını götürüb saçını daramağa başladı. O, başını daraya-daraya otağa daxil oldu. Onun hamar sifəti onu çox cavan göstərirdi. Bu Slim idi. O, şlyapasını stolun üstünə qoydu və otaqdakı iki nəfəri nəzərdən keçirdi.

- Siz təzə gələnlərsiniz?

- Bəli, elə indicə gəlmişik, - deyə Corc cavab verdi.

- Arpa səpəcəksiniz?

- Sahib belə deyir.

Slim yeşiyin üstündə oturaraq dedi:

- Belə ümid edirəm ki, mənim dəstəmdə işləyəcəksiniz. Sizdəki, heç vaxt belə işlə məşğul olmamısınız, elə deilmi?

- Yox, məşğul olmuşuq, amma bu subay oğlan ola bilsin normadan çox toxum səpə bilər.

Onların söhbətini izləyən Lenni bu kompilimentini eşitcək gülümsündü. Slim Corcun bu komplimenti bəyəndi.

- Siz həmişə ikiniz gəzirsiniz? – deyə o dostcasına soruşdu.

- Əlbəttə, - Corc dedi, - biz bir-birimizə qayğı göstəririk. O, yaxşı işçidir, yaxşı yoldaşdır, amma yöndəm bilən oğlan deyil. Mən onu çoxdan tanıyıram.

- Çox oğlanlar görmüşəm, amma bir yerdə gəzmirlər, elə bil bir-birindən qorxurlar.

- Niyə ki, yoldaş olmağa o qədər yaxı adamlar var ki.

Güclü görünən, yekəqarın bir adam içəri daxil oldu və Slimlə salamlaşdıqdan sonra Corc və Lenniyə baxdı. Bu zaman onları təqdim etmək üçün Slim dilləndi.

- Bu oğlanlar indicə gəliblər.

- Sizi görməyimə şadam. Mənim adım Karlsondur.

- Mən Corc Milton, bu isə Lenni Smoldur.

- Tanış olmağıma şadam. O çox da balaca deyil, (Smol sözünün mənası balaca deməkdir) – deyə o zarafatla Slimə tərəf çevrildi.

- Slim, sənin itin necədir? Mən onu vaqonun altında görmədim. O balalayıb, düz doqquz dənə balası olub.

- Hə, necə fikirləşirsən, onlar necə it olacaqlar?

- Mənə elə gəlir ki, Kauboy itlərinə oxşayacaqlar. Mən onların beşini götürmüşəm.

- Beşini götürmüsən? Onların beşini də saxlamaq fikrindəsən? – deyə Slim ciddi surətdə soruşdu.

- Hə, onları böyüyənə kimi saxlayacam. Bura bax Slim, Kandinin iti tamam qocalıb əldən düşüb, yeriyə bilmir, heç yediyini çeynəyə bilmir. Bu küçüklərdən birini ona verərik.

Bu zaman bayırda üçkünc zəng çalınmağa başladı. Bir-birinin ardınca vurulan zəngin səsi kəsildi. Bayırda bir qrup adamın səsi eşidildi. Slim yavaşca ayağa qalxaraq dedi:

- Uşaqlar, yaxşı olardı ki, onlar nahar edərkən siz də nahar edəsiniz.

Karlson Slimin ardınca bayıra çıxdı. Lenni Corca həyəcanla baxırdı. Corc dedi?

- Hə, Lenni, mən ondan küçüyün birini sənin üçün xahiş edəcəyəm. İndi isə gedək nahar edək.

- Boz ya da ağ küçüyün birini alarıq, - deyə Lenni sevinclə dedi:

- Düzü mən bilmirəm onlar bozdur yoxsa, ağ…

- Yaxşısı dudur ki, sən onlara de ki, heç birini öldürməsinlər, Corc.

- Dur gedək.

Lenni ayağa qalxdı, hər ikisi qapının ağzında Kölini gördülər. O acıqlı-acıqlı soruşdu.

- Siz burada bir qız görməmisiniz ki?

- Təxminən bir saat bundan əvvəl burada idi, - deyə Corc soyuqqanlıqla cavab verdi.

- O burada nə edirdi?!

- O sizi axtarırdı.

- O hansı tərəfə getdi?!

- Bilmirəm, mən ona baxmırdım.

Bu sözləri eşitcək Köli çıxıb getdi. Corc onun bu hərəkətlərindən acıqlandı və Lenniyə dedi:

- Bilirsənmi, Lenni, qorxuram bu adamla mən özüm dalaşam. Mən onun belə kişiləşməyinə nifrət edirəm. Aman Allah! Gəl görək.

Onlar çölə çıxdılar. Uzaqdan qab-qaşıqların cingiltisi eşidilirdi.

Qocalmış it açıq qapının ağzında uzanaraq başını iki qabaq pəncələrinin üstünə qoymuşdu. Köli yenə də qapının ağzında dayanaraq otağa göz gəzdirməyə başladı. İt başını qaldırdı, lakin Köli dayandığı yerdən cəld geri qayıtdı.

xxxxx

Şər qarışan vaxtı idi. Slimlə Corc qaranlıq otağa daxil oldular. Slim kart oynanılan stolun yanındakı elektrik lampasını yandırdı və Corcla üzbəüz oturdu. Corc dedi:

- Mən bunun üçün sizə təşəkkür edirəm. Aman Allah, o yatanda da küçüklə yatır.

- Hələ bu harasıdır, sən onu düz deyirdin ki, o, ağıllı deyil, amma yaxşı işçidir. O öz partnyorunu işləməkdən öldürür. Mən heç vaxt belə oğlan görməmişəm.

Corc onun bu sözlərindən fərəhlənərək dedi:

- Lazımdır ki, Lenniyə nə edəcəyini deyəsən, çünki o nə etmək lazım olduğunu bilmir.

Slim gözünə işıq düşməsin deyə bir az kənara çəkildi, - lap elə bil bir-birinizə kəndirlə bağlanmısınız. Çox gülməlidir, - dedi.

- Bunun nəyi gülməlidir? – Corc təkidlə soruşdu.

- Bilmirəm, heç vaxt iki oğlanın sizin kimi birlikdə gəzməyini görməmişəm. Burada o qədər oğlan var, amma heç biri birgə gəzmirlər. Onlar buranı tərk edib gedən də tək gedirlər. Ona görə çox gülməli görünür ki, sənin kimi balaca diribaşla, ounun kimi yekəpəl maymaq bir yerdə gəzir.

- O, maymaq deyil, sadəcə olaraq danışa bilmir. Sonrada ki, hərənin öz yeri var.

Corc bu sözlərdən sonra bir az sakitləşdi. Slim isə sakit oturub ona qulaq asırdı. Corc danışmaqda davam edirdi:

- Bu gülməli deyil, mənimlə o heç də kəndirlə bağlanmamışıq ki, birgə gəzək. Biz hər ikimiz Oborndа anadan olmuşuq. Mən onun Klara xalasını tanıyırdım. O, Lennini lap kiçik yaşından götürüb saxlayıb. Klara xala vəfat edən vaxtdan o, mənimlə işləyir.

- Həəə… belə de, indi başa düşdüm.

Corc daha sonra sözünə davam edərək dedi:

- Mən onunla tez-tez zarafat edirəm, bəzi vaxtlarda o bu zarafatı başa düşmür. Mən çox vaxt ona deyirəm ki, belə düşüncəsiz iş görməsin. Əgər mən ona desəm ki, çıx (özünü o qayadan at, atar) o, şiş qayaların başında gəz, gəzər. O, heç vaxt mənə əl qaldırmayıb. Bir dəfə bir neçə oğlanla Sakramento çayının kənarında dayanmışdım. Özü də kefim kök idi. Lenniyə çaya tullanmağı dedim, o dərhal özünü çaya atdı. Biz ona kömək etməsəydik batacaqdı, üzə bilmir axı… Elə o gündən bəri ona belə şeylər demirəm. Bir sözlə, o, yaxşı oğlandır, mən başqalarıyla yoldaş ola bilərəm, amma başqaları belə deyilər. Hələ buranın

özündə çox vaxt bir-biriləriylə mehriban dolanmır, dalaşmaq istəyirlər.

- Hə, düz deyirsən, onlar bir-biriləri ilə mehriban dolanmırlar. Sonrada ki, Lenni heç də zəif deyil.

- Əlbəttə, o, zəif deyil, amma həmişə fikirləşir. Hələ bilirsən nə olub?

- Nə olub? – deyə Slim təəccüblə soruşdu.

- Amma heç kimə demə ha…! Söz ver ki, heç kimə dəyməyəcəksən.

- Əlbəttə, heç kimə deməerəm. De görüm o nə edib?

- Hə bu qız ki, var onu qırmızı paltarda görüb və istəyib ki, onun  paltarına toxunsun, qız da başlayıb qışqırmağa. O, da əliylə onun ağzını tutub ki, səsi çıxmasın. Hər halda mən qışqırtıya gəldim və Lennini vurub ondan ayırdım.

Slim bu sözləri eşitdikdə təəccübündən gözləri bərələ qalmışdı, hətta kipriklərini belə qırpmırdı, - gör nələr baş verir!... – dedi və özünü belə bir sual verməkdən saxlaya bilmədi.

- Bəs qız onu itələmədi?

- Yox, o qorxurdu. Mən özüm də ona qoxa-qorxa yaxınlaşdım, çünki mənə cuma bilərdi. O,yalnız qızın

paltarını tumarlamaq istəyirdi, necə ki, küçükləri tumarlayır.

- O, zəif deyil, - deyə Slim təkrar etdi.

- Əlbəttə, yox.

Elə bu zaman Lenni içəri daxil oldu, onun çiyninde özünün mavi rəngli nimdaş paltosu var idi. Corc onu görcək dedi:

- Salam, Lenni, küçüklərin necədir?

Lenni təngnəfəs halda:

- Yaxşıdırlar, - dedi və çarpayısına uzanaraq üzünü divara çevirdi.

Corcun əlində kart var idi. O, kartı stolun üstünə qoyaraq Lennini səslədi.

Lenni ona tərəf çevrildi.

- Nə deyirsən, Corc?

- Deyirəm küçüyü bura niyə gətirmisən?

- Hansı küçüyü, Corc? Mən küçük gətirməmişəm. Corc cəld ayağa qalxıb onun yanına gəldi və onu o biri tərəfə çevirərək gizlətdiyi balaca küçüyü götürdü. Lenni cəld yerində oturdu və Corca təkidlə dedi:

- Mənə ver, Corc!

- Yaxşısı budur ki, onu anasının yanına aparıb qoyasan. Onu öldürmək istəyirsən? Keçən axşam anadan olub, sən onu bu gün yuvasından çıxarmısan.

Apar, tez yuvasına qoy, yoxsa Slimə deyəcəm, sənə onların heç birini verməsin.

- Mən onu bu dəqiqə apararam, mənə ver, Corc, istəyirdim ki, onu burada tumarlayım.

Corc küçüyü Lenniyə verdi və dedi:

- Tez onu yuvasına apar, bir də gətirmə!... yoxsa onu öldürərsən.

Lenni küçüyü götürüb cəld otaqdan çıxdı. Slim yerindən tərpənmədən. Lenninin arxasınca baxdı və dedi:

- Aman, Allah, o lap çəpişə oxşayır, elə deyilmi?

- Hə, oxşayır, ola bilsin ki, o bu gecə burada yox, elə anbarda yatacaq. Qoy yatsın, - deyə Corc sözünü tamamladı.

Artıq qaranlıq çökmüşdü. Qoca Kandi içəri girdi və çarpayısında oturdu, onun qoca köpəyi də yanında hərlənirdi.

- Salam, Slim. Salam, Corc. Heç biriniz kart oynamaq istəmirsiniz?

- Mən hər axşam oynamaq istəmirəm, - deyə Slim dilləndi.

- Bəlkə, viski içəsiniz?

- İçmirəm, mən yalnız özümün olanda içirəm.

- Deyirsən başqası pisdir, Slim? – Kandi soruşdu.

Bu zaman iri cüssəli Karlson içəri girdi. O, özünü otağın başqa tərəfində olan çarpayısına tərəf getdi və orada olan elektrik lampasını yandırdı, ətrafa göz gəzdirdi və qoca köpəyi görcək qoca Kandiyə dedi:

- Kandi bu qoca köpəyi buradan çıxart. Görmürsən o yeriyə bilmir, özü də pis iylənir?!

Qoca Kandi itinin yanına gəlib dedi:

- Mən nə qədər onun yanında olmuşam, amma ondan iy gəldiyini hiss etməmişəm.

- Bilmirəm, mən onun iyinə dözə bilmərəm. Onun ağzında bir dənə də dişi yoxdur, niyə aparıb onu güllə ilə öldürmürsən? Onun sənə nə xeyri var?

- Qoca onun bu sözlərindən çox narahat oldu, çətinliklə də olsa özünü düzəldərək dedi:

- Hə, mən onu çoxdan saxlayıram, onunla çobanlıq etmişəm, sən elə bilmə ki, o elə belə olub. Bu it bütün itlər arasında ən yaxşı it idi.

- Bax, Kandi, apar onu güllə ilə öldür – deyə Karlson təkid etdi.

Qoca Kandi acizanə surətdə baxaraq dedi:

- Xeyr, mən bacarmaram. Çoxdandır onu saxlayıram, indi necə ola bilər ki…

- Sənə nə dediyimi başa düşmürsən, məgər? Onda özüm onu öldürərəm.

- Onun heç bir ziyanı yoxdur, Karlson, mən onu balaca vaxtından götürüb saxlamışam.

- Hə sənə deyim ki, onun indi sağ qalmasının heç bir xeyri yoxdur. Bax Slimin itinin balaca balaları var, ona deyərəm birini sənə verər, elə deyilmi, Slim?

- Hə verərəm, hamısını istəsən onu da verərəm. Karlson haqlıdır, Kandi, onun sənə heç bir xeyri yoxdur.

Kandi onlara əlacsız eyni zamanda köməksiz bir adam kimi baxdı. Slimin fikri onun üçün qanun idi. O dedi:

- Mən ona qayğı göstərməkdən heç vaxt yorulmuram.

Karlson onun sözünə cavab olaraq dedi:

- Mən sənə onu öldürməyin yolunu deyirəm. Tüfəngi onun başının arxasına tuşla və at.

Qoca Kandi onların üzünə sanki gömək istəmiş kimi baxırdı. Bu vaxt cavan bir oğlan ağır addımlarla içəri daxil oldu. Hiss olunurdu ki, dolu kisələri daşımaqdan lap yorulub əldən düşmüşdü. O, şlyapasını çıxarıb, ona aid olan şkafın üstünə qoydu, sonra isə şkafdan bir curnal çıxarıb Slimə dedi:

- Mən sənə bunu göstərməliydim, Slim:

- Mənə nə göstərməliydin?

Cavan oğlan curnalın başqa tərəfini çevirib barmağı ilə göstərərək dedi:

- Duz buradan oxu bunu, özü də bərkdən oxu.

- «Əziz redaktor, mən sizin curnalı altı ildir ki, oxuyuram və mənə elə gəlir ki, köşkdə satılan curnallar içərisində ən yaxşı curnaldır. Mən Piter Randın hekayələrini xoşlayıram. Məncə o, çalınan zəngdir. Zəhmət olmasa, onun əsərlərindən çoxunu çap edin. Düzü məktubumu çox uzun-uzadı yazmaq istəmirəm, onu demək istəyirəm ki, məktubum barədə fikirləşin və dediyim kimi vaxtımı sizin curnalı oxuyanda çox yaxşı keçirirəm».

Slim heç nə başa düşmədiyindən ona sual dolu nəzərlərlə baxdı və soruşdu:

- Nə üçün mən bunu oxumalıyam?

- Davam elə aşağıda yazılmış adı oxu, Slim, - Vita səbirsizliklə dedi.

- Hörmətlə, Vilyam Tener, hə, nə olsun?

- Məgər Vilyam Teneri tanımırsan? Üç ay bundan əvvəl burada işləyirdi.

Slim bir az fikirləşdikdən sonra dedi:

- O, balaca oğlanı deyirsən, becərməni aparan eləmi?

- Özüdür ki, var. Həmin oğlanı deyirəm.

- Sən belə fikirləşirsən ki, bu məktubu yazan həmin oğlandır?

- Əlbəttə, mən onu tanıyıram. Bir gün buradaydı. Onun əlində bir kitab var idi. Kitabı vərəqləyə-vərəqləyə mənə bu məktubu göstərib dedi:

«Mən bu məktubu yazmışam.

- Hə indi başa düşdüm. O məktub kitabın arasında idi.

Corc curnalı götürmək üçün əlini uzatdı.

- Ver baxım.

Vit aşağı oturdu və barmağı ilə məktubu ona göstərdi, sonra isə curnalı yenidən şkafın içərisinə qoydu.

- Vilyam (Bil) yaxşı oğlandır, mən onunla bir yerdə işləmişəm. Hər ikimiz becərmə işi aparırdıq.

Karlson onlarn sözünü kəsib, yenə qocanın iti barəsində söhbəti davam etdirdi.

Qoca Kandi isə ona yazıq-yazıq baxırdı. Karlson dedi:

- Əgər istəyirsənsə, bu saat mən onunla qurtarım, onu saxlamağın mənası yoxdur. O nə yeyə bilir, nə gözləri görür, nə də yeriyə bilir.

- Sənin ki, tüfəngin yoxdur – Kandi dedi:

- Tüfəngim yoxdur, amma pistoletim var.

- Bəlkə sabaha qalsın, hə?

- Bunun heç bir əhəmiyyəti yoxdur – o bu sözləri deyib çarpayısının altından çantasını götürdü və Liqer tipli pistoletini çıxartdı, gəl onunla qurtaraq. Biz onun iyindən yata bilməyəcəyik.

O, pistoletini cibinə qoydu, Kandi isə iti saxlamaq üçün uzun müddət fikirləşdi. Nəhayət, kobudcasına dedi:

- Hə, gətir onu görüm, - o cibindən balaca bir şallaq çıxarıb qoca itin bobazından bağladı və çəkib onu aparmağa başladı. Kandidən başqa hamı ona baxırdı, - gəl görüm, hə, hə, gəl görüm, - deyə Karlson iti dartırdı. İt onun arxasınca gedirdi. Slim onu arxadan səsləyib, özü ilə bel götürməyi də tapşırdı. Corc qapıya tərəf gedib qapını örtdü. Kandi çarpayısında uzanaraq gözlərini tavana zilləmişdi. Bayırda sakitlik idi, hətta Karlsonun ayaq səsləri artıq eşidilmirdi.

Corc özündən razı qalmış kimi gülərək dedi:

- Mən Lennini küçüklə birlikdə anbara yollamışam, əgər küçüyü ora qoymasa bura gəlməyəcək.

Slim qoca Kandiyə müraciətlə dedi:

- Kandi, sən o küçüklərin hansını istəsən götürə bilərsən.

Kandi cavab vermədi. Oltağa sükut çökmüşdü. Birdən Corc dilləndi.

- Kim mənimlə kart oynamaq istəyir?

- Mən oynamaq istəyirəm deyə Vit cavab verdi.

Onlar stolun arxasında üz-bəüz oturdular. Corc kartları qarışdırmadı. O, otaqda olan adamların hamısını nəzərdən keçirib bunu etmədi. Yenidən otağa sükut çökdü. Kandi hələ də eyni vəziyyətdə uzanıb tavana baxırdı. Slim onu gözdən keçirərək əllərinə baxdı. Döşəmənin altında xırıltı səsləri eşidilirdi, hamı xırıltı gələn tərəfə baxdı, təkcə Kandi tərpənməyərək tavana baxırdı.

- Belə səsləri kəsəyən çıxarır, biz ora tələ qoymalıyıq, - Corc dedi:

- Nə dayanmışıq, - Vit dedi, - belə getsə biz oynaya bilməyəcəyik. Başla görüm.

Corc kartları götürdü. Otaqda yenə də sakitlik idi. Birdən uzaqdan güllə səsi eşidildi. Hamı cəld qocaya baxdı. Qoca isə çox keçmədi üzünü divara çevirdi.

Corc kartları qarışdırıb paylamağa başladı. Vit dedi:

- Siz deyəsən bura həqiqətən işləməyə gəlmisiniz.

- Bəs necə fikirləşirsən? – Corc soruşdu.

Vit gülərək:

- Siz bura cümə günü gəlmisiniz, elə edirsiniz ki, güya burada olmamısınız. Bura işləməyə gələnlər əsasən şənbə günü günortadan sonra gəlir. Gələn adam şənbə gününün axşamı üçün şam edir və bazar günü isə 3 dəfə yemək yeyir. Amma siz isə cümə günü gəlmisiniz.

Corc azacıq dayandıqdan sonra dedi:

- Biz-Lenni və mən bir az pul qazanmaq istəyirik.

Bu zaman qapı sakitcə açıldı və icəri bir nəfər daxil oldu. Slim gözlərini qoca Kandidən çəkdi və yeni gələnə dedi:

- Hə, sənsən, Kruk, salam! Nə olub?

- Gəldim deyim ki, o yekə təzə gələn oğlan küçükləri ambardan çölə çıxardır.

- O, heç nə eləməz, ona birini vermişəm.

- O, küçüklərin hamısını çıxardır, onlar üçün zərərlidir.

- Eybi yox,incitməz. İndi səninlə gedərəm, bir dayan.

Corc bunu eşitcək:

- Əgər o avara çox axmaqlıq edirsə, onda sal təpiyin altına, Slim.

Corc bu sözləri deyib kartları payladı və özünə düşən kartları gözdən keçirdi.

- O, təzə çəpişi görmüsən? – Vit soruşdu.

- Hansı çəpişi?

- Kölinin arvadını deyirəm.

- Hə… görmüşəm.

- Deyəsən o bir təhərdir, eləmi?

- Nə deyim, düzü onu çox görməmişəm, – Corc cavab verdi.

Vit əlindəki kartları stolun üstünə qoydu və dedi:

- Hələ sən onu çox görəcəksən. Mən onun kimisini çox görümüşəm. O, hamıya göz yetirir, bilmirəm nə istəyir?

- O, bura gələndən bir hadisə baş verib? – Corc soruşdu.

- Mən bilmirəm sən nəyi nəzərdə tutursan, onu da deyim ki, o həmişə özünü oğlanlara göstərir. O, Kölini və ya başqa bir şey axtarmaq bəhanəsi ilə buralarda gəzir, amma Kölinin şalvarı elə əvvəlki kimi yenə də bulaşıqdır.

Birdən qapı açıldı, Lenni və Karlson içəri girdilər. Lenni keçib çarpayısının üstündə əyləşdi. Karlson isə çarpayısının üstündəki çantasını bir yana qoydu və cibindən pistoleti çıxarıb içini təmizləməyə başladı.

Kandi üzünü ona çevirib bir müddət pistoletə baxdı və yenə də üzünü divara çevirdi.

Karlson ehtiyyatla soruşdu:

- Köli burada olub?

- Xeyr o nə axtarır ki, belə? – Vit dilləndi.

- O, öz sevgilisini axtaır. Mən onu buralarda gəzən gördüm, deyə Karlson cavab verdi.

- O, vaxtının çoxunu elə onu axtarmaqda keçirir, o da bunu axtarır.

Köli elə bu vaxt otağa daxil oldu.

- Heç biriniz mənim arvadımı buralarda görməmisiniz ki?

- O, buralarda olmayıb – Vit cavab verdi.

Köli otağa göz gəzdirdi.

- Slim hardadır?

- Anbara getdi, - Corc cavab verdi.

- O, nə vaxt gedib?

- On-on beş dəqiqə olar.

Köli cəld çölə çıxdı. Karlson pistoletini silib çantaya, çantasını isə çarpayısının altına tulladı və dedi:

- Elə isə çölə çıxım, o qızı axtarım.

Qoca Kandi və Lenni sakitcə uzanmışdılar, Corc isə onlara baxırdı.

Elə ki, Vit və Karlson çıxıb getdilər, Corc Lenniyə dedi:

- Yenə ağlına bu nə fikirdi gətirmisən?

- Mən heç bir şey etməmişəm, Corc. Slim təkcə mənə onu dedi ki, küçükləri çox tumarlamayım, çünki onlar hələ çox balacadırlar. Mən yalnız özümünkünü götürmüşdüm.

- Sən məgər anbarda Slimi gördün? -Corc soruşdu:

- Hə, gördüm. O mənə dedi ki, onlara toxunmayım.

- Sən o qızı gördün?

-Kölinin qızını deyirsən?

- Hə onu deyirəm. O anbara gəlmişdi?

- Yox, Corc, mən onu görməmişəm.

- Sən onun Slimlə söhbət etdiyini görmüsən?

- O, anbarda deyildi.

- Bəs sən Slimi görəndə o nə edirdi?

- Onun əlində rəng fırçası var idi, düzü bilmədim nə üçün?

- Sən o qızı içəridə görmədin?

- Yox, o heç vaxt orada olmayıb.

Qoca Kandi yavaş-yavaş yerindən çevrildi. Onun gözləri geniş açılmışdı. O, Corca nəzər yetirdi. Lenni

onun gözlərini qocadan yayındıraraq gələcək evləri barədə danışmağı xahiş etdi.

- Mən ki, keçən gecə danışmışam.

- Yenə danış, Corc.

- Hə… bizim balaca külək dəyirmanımız olacaq. Həmçinin meyvə bağımız, üzümümüz, almamız, armudumuz olacaq, Lenni.

- Bəs, dovşanlarımız, Corc?

Corc əlindəki kartları yerə qoydu.

- Bizim bir-iki donuzumuz olacaq. Onun ətindən kolbasa düzəldəcəyik. Hələ duzlu balıq da hazırlayacağıq, Lenni. Biz onları naharda yeyərik. Ola bilsin, bizim keçimiz və ya inəyimiz olacaq. Biz onun qatığını yeyəcəyik.

Lenni ona heyranlıqla baxırdı, hətta qoca Kandi də hər şeyi unutmuş kimi onların söhbətinə qulaq asırdı.

- Bizim tərəvəz əkmək üçün sahəmiz olacaq, eləmi Corc?

- Əlbəttə.

- Elə isə evimiz barədə danış, Corc, - deyə Lenni yalvardı.

- Əlbəttə, bizim özümüz üçün evimiz olacaq. Biz gündə on bir saat işləməyəcəyik, beş-altı saat işləyərik, vəssalam.

- Bəs, dovşanlar, Corc?

- Bizim həm yeməyə, həm də satmağa çoxlu dovşanlarımız olacaq.

Birdən qoca Kandi danışmağa başladı, onların hər ikisi ona tərəf çerildilər. Qoca Kandi dedi:

- Bilirsinizmi siz dediyiniz kimi bir yer harda var? Mən tək əllə nə edə bilərəim, qolumun birini itrimişəm, ona görə də mənə süpürgəçiliyi veriblər. Onlar mənə qolumu itirməyimə görə 250 dollar da veriblər.

Bütün bunların nə faydası… Mən yemək bişirə bilirdim, cücə qızardırdım. Bunlar necə oldu bəs? Mən də istərdim ki, sizinlə birlikdə buranı tərk edib gedim. Mənə nə var ki, nə ailəm var, nə də qohumlarım. Siz heç pul qazanmısınız?

- İkimizin on dollarımız var, əgər Lenni və mən bir ay işləsək,heç nəyə xərcləməsək, onda 100 dollarımız olacaq.

Onlar birdən-birə sakitləşərək, bir-birinin üzünə təəccüblə baxdılar. Onların inanmadıqları bu fikir həqiqətə çevrilirdi. Corc-aman Allah-dedi və gözləri yaşardı.

Qoca Kandi çarpayısının küncündə oturdu və əsəbi halda dedi:

- Mənim dörd ildir ki, qolum yoxdur, elə ki, yer süpürməyi də bacarmadım, onda onlar məni kənara atacaqlar. Bəlkə mən pullarımı sizə verim və siz mənə bağda bir balaca daxma düzəldərsizniz, mən sizin qablarınızı yuyaram, cücələrinizə yem verərəm. Təkcə onu hiss edərəm ki, öz evimizdəyəm. Gördünüzmü mənim itimi bu gecə neylədilər? Onlar dedilər ki, o itin heç bir xeyri yoxdur. Onlar iti öldürməyə aparanda mən arzu edirdim ki, iti yox, məni öldürsünlər. İndi mənim getməyə bir yerim yoxdur və mən heç bir yerdə iş tapa bilmərəm.

Corc dərindən ah çəkərək, ayağa qalxıb dedi:

- Biz onu düzəldəcəyik, bir yerdə yaşayacağıq.

Onların hamısı sakit oturmuşdular. Corc heyranlıqla söhbətə başladı.

- Elə təsəvvür edin ki, biz şəhərdə olan karnavala və ya sirkə gödərik, biz inəyi sağar və toyuqlara dən səpərik.

- Dovşanlara ot verərik, - mən heç vaxt onları yemləiəyi yaddan çıxarmaram, - deyə Lenni onun sözünə qüvvət verərək əlavə etdi və soruşdu: - Bəs biz bunu nə vaxt edəcəyik, Corc?

- Bir aydan sonra. Bilirsinizmi mən nə etmək istəyirəm. Mən yazmaq istəyirəm ki, qoca adamlara bir ev lazımdır və qoca Kandiyə 100 dollar göndərsinlər və onu alaq.

- Əlbəttə, bu yaxşı olardı - Kandi dedi.

- Mən də öz küçüyümü aparacağam ora, - Lenni dedi.

Çöldən səslər eşidilirdi. Corc cəld surətdə bildirdi ki, bu haqda heç kəsə deməsinlər, söhbət onların üçünün arasında qalsın.

- Corc, - deyə Kandi çağırdı.

- Hə…

- Mən öz itimi özüm öldürəcəkdim. İstəməzdim ki, onu başqası öldürsün.

Qapı açıldı və Slim içəri girdi. Köli, Karlson, Vit də içəri daxil oldular. Köli dedi:

- Mən səni günahlandırmıram, Slim. Slim dedi:

- Sən məni tez-tez soruşursan, lap dəli olmuşam. Əgər sən öz arvadına baxa bilmirsənsə, mən bunun üçün nə etməliyəm? Sən hər şeyi məndə görürsən. Əl çək məndən!...

- Mən səni günahlandırmıram, sadəcə olaraq səndən soruşuram ki, onu görməmisən ki?

- Nə üçün demirsən ki, evdə otursun? – deyə Karlson onların söhbətinə qarışdı, - sən ona icazə verirsən ki, buraları gəzsin, bir azdan belə getsə, ona heç nə edə bilməyəcəksən. O, sənin sözünə baxmayacaq.

- Gəl çöldə danışaq – deyə Köli Karlsona tərəf yeridi.

Karlson güldü və dedi:

- Sən istədin ki Slimi biabır edəsən, amma bacarmadın. Üstümə gəlirsən, qorxmursan ki, başını əzərəm?!

Bu zaman qoca Kandi onların söhbətinə müdaxilə edərək:

Köli boksçudur ha, - dedi və gülümsündü. Bu zaman Lenni də gülümsündü. Kölü onun güldüyünü görüb qəzəbli-qəzəbli onun üstünə yeridi.

- Nəyə gülürsən?

Lenni soyuqqanlıqla ona baxdı və dedi:

- Hə, nədi?

- Bura gəl, avaranın biri, ayağa dur görüm. Bu saat sənə göstərəcəyəm.

Lenni köməksiz halda Corca baxdı. Köli özünü tarazlayıb əvvəlcə sol əli ilə, sonra isə sağ əli ilə Lenniyə zərbə endirdi. Lenni bərkdən qışqırmağa

başladı. Onun, burnundan qan axırdı. O, Corc, - deyə qışqırdı. O, üzünü divara çevirərkən Köli yenə də onun sifətinə zərbə endirdi. Lenninin əlləri yanında qalmışdı, özünü müdafiə etməyə belə qorxurdu. Corc isə yalnız ona özünü qorumağı deyirdi. Lenni qana bulaşmış üzünü tutaraq qəzəblə dedi:

- Corc, onu saxla…!

Köli onu vurmağında davam edirdi. Hətta Lenninin boğazından yapışdı. Bunu görən Slim onun üzərinə tullandı.

Balaca siçanı özüm saxlayacağam, - dedi?

Corc Slimin çiynindən yapışaraq dedi:

Lenni əlini üzündən çəkdi və Corca baxdıqda Köli onun sağ gözunə möhkəm bir zərbə vurdu, onun üz-gözü tamam qan oldu. Bu zaman Corc Lenniyə dedi:

- Vur onu.

Köli yumruğunu düyünləyirdi ki, vursun, lakin bu dəfə Lenni onun qarşısını aldı. O, yumruğunu düyünləyərək Kölini elə vurdu ki, o, yerindəcə qaldı və oturduğu yerdə qışqırmağa başladı. Corc Slimi kömək etməyə, yəni onları aralamağa çağırdı. Lenni özü aralanaraq üzünü başqa tərəfə çevirdi və dedi:

- Sən dediyinə görə buraxıram, Corc.

Köli isə sınmış qoluna təəccüblə baxaraq qışqırdı. Slimlə Karlson dizi üstündə onun yanında oturdular. Sonra Slim Lenniyə baxıb dəhşətə gəldi və dedi:

- Biz onun üçün həkim çağırmalıyıq.

- Mən istəmirəm, heç bir yerim ağramır.

- Karlson, onu xəstəxanaya aparaq, onsuz da onun heç bir günahı yoxdur.

Slim cəld çölə çıxdı, bir stəkan su ilə geri qayıtdı və suyu Kölinin dodaqlarına apardı. Corc dedi:

- Slim, indi bizi həbsxanaya salacaqlar?

Kölinin atası bizi həbsxanaya saldıracaq, elə deyilmi?

Slim acı gülüşlə güldü və dedi: qulaq as görüm, Köli, deyərsən ki, guya sənin qolunu maşın əzib, əgər sən nə olduğunu bir kəsə deməsən, onda biz də heç kəsə deməyəcəyik. Əks halda hamıya deyəcəyik, yoxsa sənə güləcəklər.

- Mən demərəm.

Çöldə Kaplsonun səsi gəlirdi. Slim Köliyə ayağa qalxmaqda kömək etdi və dedi:

- Gəl görüm. Karlson səni həkimə aparacaq.

Köli qapıya yaxınlaşdıqca Lenniyə baxırdı. Bir neçə dəqiqədən sonra Slim yenidən otağa qayıtdı və Lenniyə dedi:

- Əllərinə baxım, Lenni? Aman Allah, sən lap dəli olmuşdun deyəsən.

Bu zaman Corc dilləndi:

- Lenninin başqa çıxış yolu yox idi, o nə edə bilərdi. Mən demişdim heç kiminlə dalaşma, indi sən nə edə bilərdin. Özü də sənin günahın yox idi. Mən sənə dediyim kimi hərəkət etmisən. Bəlkə gedib üzünü yuyasan, Lenni.

Lenni onun dediyinə riayət edib üzünü yumağa getdi.

- Corc? – deyə o çağırdı.

- Nə deyirsən, Lenni?

- Mən dovşan saxlayacağam, Corc?

- Əlbəttə, Lenni, sənin nə günahın var ki, əl üzünü yu və çalış olmuş hadisəni yadından çıxart.

xxxxx

Kruksun daxmaya bənzər balaca bir otağı var idi. Otağının arxa divarı anbir idi. Daha sonra otağın dörd gözlü bir pəncərəsi, dar qapısı var idi. Pəncərənin aşağısında  müxtəlif cür alətlər vardı, bundan başqa alma qutusunda həm özü üçün, həm də atlar üçün dərmanlar da qoyulmuşdu.

Kruksun zəngli saatı və balaca bir tüfəngi də var idi. Otaq süpürülümüşdü. O həmişə deyirdi ki, o hamıya hörmət qoyur, gərək hamı da ona hörmət qoysun.

Şənbə gecəsi idi. Kruks otağında oturmuşdu. Səssiz-küysüz Lenni gəlib onun açıq qapısının ağzında dayandı və içəri göz gəzdirməyə başladı. Onun enli çiyinləri qapını örtmüşdü. Bir müddət Kruks onu görmədi, başını qaldıranda onun gözləri Lenniyə sataşdı. Lenni dostcasına gülümsədi. Kruks ciddi surətdə dedi:

- Mənim otağıma girməyə sənin ixtiyarın yoxdur.

Lenni özünü yığışdırdı:

- Mən nə edirəm ki, gəlmişəm küçüyümə baxım.

- Mən istəmirəm ki, heç kim mənim otağıma girsin, elə isə çıx bayıra…

- Nə üçün istəmirsən? – deyə Lenni soruşdu.

- Çünki, mən zənciyəm. Siz isə ağ dərilisiniz. Siz bir yerdə yaşayırsınız, bir yerdə kart oynayırsınız, mən

isə yox, çünki mən qarayam. Hələ deyirəm ki, mən murdaram. Mən də deyirəm ki, siz də mənim üçün murdarsınız.

- Düzü hamı şəhərə gedib. Slim, Corc… hamı. Corc tapşırdı ki, evdə qalım. Mən də sənin işığını görüb gəldim.

- Hə, nə istəyirsən? – Kruks soruşdu.

- Heç nə, mən sizin işığınızı görüb gəldim. Elə fikirləşirdim ki, içəri girib oturaram.

Kruks Lenniyə təəccüblə baxaraq dedi:

- Mən bilmirəm sən anbarada neynirsən. Sən ki, heyvanlara baxan deyilsən, sən ki, atlara baxmırsan.

- Mən küçəyə baxmaq istəyirəm, - deyə Lenni təkrar etdi, - Mən küçüyümü görməyə gəlmişəm.

- Onda get öz küçüyünə bax.

- Slim dedi ki, mən onlara baxım, amma əlimə götürüb oynatmayım.

- Sən onları yuvasiından çıxarmışdın, maraqlıdır ki, o heç kəsə onları çölə çıxarmağa qoymur.

- O, mənə icazə verir, - deyə Lenni yenidən otağa daxil oldu.

Kruks ona ciddi baxaraq dedi:

- Gəl bura, bir az otur. Çoxdandır təkəm, deyirsən hamı şəhərə gedib, hə?

- Qoca Kandidən başqa hamı gedib.

O, indi evdə oturub, qələmini götürüb hesabat aparır.

- Hesabat aparır?! Nəyin hesabını, - deyə Kruks bir qədər dostcasına danışdı.

- Dovşanların hesabını aparır.

- Dovşanların?! Siz dəli olmusunuz, nədi. Hansı dovşanların?

- Biz alacağımız dovşanların. Biz dovşan almaq istəyirik.

- Sən məni ələ salırsan?

- Mən heç vaxt heç kimi ələ salmamışam. Yalan yox, düzünü deyirəm. Biz balaca bir yer alıb orada yaşamaq istəyirik.

Kruks oturduğu yerdə özünü daha da rahatlaşdırdı və Lenniyə dedi:

- Əyləş görüm, əyləş.

- Sən elə fikirləşirsən ki, mən yalan danışıram. Mən hamısını düz deyirəm. Hətta sən bunları Corcdan da soruşa bilərsən.

Kruks başını divara söykədi və dedi:

- Sən həmişə Corcla gəzirsən, elə deyilmi?

- Əlbəttə, biz bir yerdə gəzirik.

Bir müddət dayandıqdan sonra Kruks söhbətə başladı.

- Mən cənublu zənci deyiləm. Mən burada, yəni Kaliforniyada anadan olmuşam. Mənim sahibimin böyük bir cücə ferması vardı. Balaca ağ dərililərin uşaqları bizim yanımıza gələr və bizimlə oynayardılar.

Onların bəziləri çox qəşəng idilər. Mənim sahibim bunu xoşlamazdı. Mən əvvəllər heç vaxt ağlıma gətirə bilmirdim ki, nə üçün onun xoşuna gəlmirdim, lakin indi bilirəm.

O, tərəddüd etdi və bir qədər uca səslə söhbətini davam etdirdi

- Orada zənci ailəsi yox idi, yalnız bir ailədən başqa. İndi buralarda bir nəfər də olsun zənci yoxdur.

Birdən Lenni ondan soruşdu.

- Bilmirsən küçüklər nə vaxt böyüyəcək və mən də onları götürüb oynadacağam?

Kruks güldü və cavab verdi:

İki həftədən sonra küçüklər yaxşı olacaqlar. Hə, bir də ki, hərdən bir Corc nə isə danışır, amma sən başa düşmürsən deyilənə görə. Necə yəni başa düşmürsən? Bax elə güman et ki, Corc şəhərdən geri qayıtmayacaq, onda nə edəcəksən?

Lenni onun sözlərindən dik atılaraq soruşdu:

- Necə?!

- Mən dedim ki, elə güman et ki, birdən Corc şəhərdən qayıtmadı, onda necə olacaq.

- O belə etməz. Corc belə etməz! O, qışqırdı, - mən Corcla çox gəzmişəm, onu tanıyıram, o bu axşam gələcək. Məgər elə fikirləşmirsən?

Kruksun sifətinin ifadəsi dəyişərək:

- Heç kim heç nə deyə bilməz o nə edəcək. Deyək ki, o evə gəlmək istəyir, amma bacarmır. Elə güman edək ki, onu öldürüblər və ya incidirlər, o da gələ bilmir.

- Corc, heç vaxt belə etməz, o çox ehtiyatlıdır. Ona görə də onu heç vaxt incitməzlər.

- Hə, elə təsəvvür edək ki, o qayıtmadı, onda nə edəcəksən?

- Mən bilmirəm. Axırı belə danışma. Sən düz demirsən, Corcu incitməzlər.

- İstəyirsənmi deyim nə olub?

- Corca nə olub? – deyə Lenni həyəcanla soruşdu, - kim onu incidib? – O ayağa qalxdı və Kruksa tərəf gəldi. Kruks onun belə həyəcanlandığını görüb geri çəkildi və dedi:

- Mən sadəcə olaraq güman edirəm ki, ona heç nə olmayıb, o sağ-salamat qayıdacaq.

Lenni onun qarşısında dayandı və soruşdu:

- Sən nəyi güman edirsən? Heç kim onun haqqında belə güman edə bilməz.

Kruk eynəyini çıxarıb barmağı ilə silərək dedi:

- Bir otur görüm, Corca heç nə olmayıb.

- Heç kim Corc barədə belə danışa bilməz, - deyə Lenni dodaqaltı təkrar etdi.

- Bəlkə də indi yolda gəlir.

- Düz deyirsən, bəlkə də o indiyə qayıdıb. Yaxşısı budur gedim görüm gəlibmi?

- Mən səni qorxutmaq istəmirəm. O, geri qayıdacaq.

- Mən bilirəm, Corc məni tərk edib getməz. O deyir ki, dovşanlar üçün yer düzəldəcək.

- Hansı dovşanlar üçün?

- Biz dovşan və torpaq sahəsi alacağıq.

- Siz axmaqsınız. Mən çoxlarını görmüşəm ki, bu fikirdə olublar, yüzlərlə belələrini görmüşəm. Mən bu barədə çoxlu kitablar da oxumuşam. Onlar heç vaxt bir parça torpaq ala bilmirlər, bu yalnız onların arzusu olaraq qalır. Onlar həmişə danışırlar, lakin həyata keçmir onların danışığı.

Kruks danışığına ara verdi. O atların o tərəf bu tərəfə hərəkət edərək kişnədiyini gördü və dedi:

- Deyəsən çöldə kimsə var. Ola bilsin Slimdir. Bu sənsən, Slim? Deyə o çağırdı. Bayırda qoca Kandi zəif səslə cavab verdi:

- Slim şəhərə getdi. Sən Lennini görməmisən?

- O yekə oğlanı deyirsən?

- Hə, onu buralarda görməmisən ki?

- O buradadır, - deyə Kruks cavab verdi.

Kandi qapının ağzında dayandı və otağa baxdı. O, içəri girməyə cəhd göstərmədi.

- Sənə demək istəyirmə ki, Lenni, mən dovşanları hesablamışam.

- Sən içəri girə bilərsən, əgər istəsən, - deyə Kruks ona təklif etdi.

- Mən girərəm, əlbəttə… əgər sən icazə versən.

- Gəl, keç içəri.

Kandi içəri girdi, - sən özün üçün burada balaca rahat yer düzəltmisən, - dedi.

Bu zaman Lenni söhbətə başladı.

- Sən dovşanlar haqda danışdın.

Kandi içəri göz gəzdirib dedi:

- Mən çoxdandır burada yaşayıram. Amma birinci dəfədir ki, bura girirəm, baxmayaraq ki, sən də burada çoxdandır yaşayırsan.

Kruks dedi:

- Ağ dərililər zəncilərin otağına girmirlər. Slimdən başqa burada heç kim olmayıb. Daha dəqiq desəm, Slim və sahibdən başqa, heç kim olmayıb.

Kandi cəld söhbəti dəyişdi.

- Slimi mən yaxşı adam kimi tanıyıram, elə bu gün də yaxşı adam kimi tanıyıram.

Lenni birdən qoca Kandiyə dedi:

- Dovşanlar haqda danış.

Kandi güldü və dedi:

- Mən onları hesabladım. Biz onlar üçün pul hazırlamalıyıq.

- Mən onlara baxacamğam, - deyə Lenni dilləndi, - Corc söz verib ki, onlara qayğı göstərim.

- Siz özünüzü lap balaca uşaqlar kimi aparırsınız. Siz bu haqda danışırsınız, amma torpaq əldə edə bilməyəcəksiniz.

Min sizin kimiləri çox görmüşəm.

Qoca Kandi acıqlı-acıqlı dişlərini qıcadı və dedi:

- Sən haqlısan, amma bizim pulumuz var. Corc deyir ki, mən torpaq alacağam.

- Hə… bəs hanı Corc? Şəhərdə əxlaqsız bir qadının evində, eləmi? Baxın sizin pulunuz hara gedir. Aman allah, bilmirsiniz mən belələrini nə qədər görmüşəm?! Belə oğlanlar heç vaxt ev almayıblar.

Kandi Kruksun sözlərindən hiddətləndi və uca səslə dedi:

- Əlbəttə, hamı istəyir ki, özünün balaca bir torpaq sahəsi olsun, çox yox. Mən həmişə işləmişəm, yaxşı məhsul becərmişəm, amma bu məhsul mənim özümün olmayıb, onu biçib özgəsinə vermişəm. Burada sənin səhvin var. Corc pulu götürməyib, çünki pul hal-hazırda bankdadır. Corc, Lenni və mən, istəyirik ki, bir otağımız olsun. Bizim itimiz, dovşanımız, toyuq-cücəmiz olsun. Hələ inəyi və ya keçini, demirəm.

- Deyirsiniz pulunuz var?

- Hə, bir az varımızdı. Qalanını da bir ay işləyəndən sonra düzəldəcəyik. Hətta Corc bir ev seçib tapıb da….

- Doğrudan? Mən belə adamlar görməmişəm. Mən həmişə görmüşəm ki, cavan oğlanlardır, amma tək-tənha gəzir və qazandığı pulu da lazımsız yerə xərcləyirlər. Madam ki, siz beləsiniz, onda nə üçün mən sizinlə birlikdə işləməyim? Mən burada işqləməkdən əlil olmuşam.

- Siz Kölinin görmüsünüz? – deyə Kölinin arvadı qapının ağzından içəri boylanaraq soruşdu. O, təngnəfəs danışırdı, elə bil qaça-qaça gəlmişdi.

- Köli burada olmayıb, - deyə Kandi cavab verdi.

O, qapıda bir az da dayandı, dırnaqlarını barmaqları ilə silə-silə gülümsündü. Onun gözləri otaqda olanların üzündə gəzdi. O, dedi:

- Onlar bütün zəifləri burada qoyub gediblər. Mən bilmirəm onlar hara gediblər? Hətta Köli də.

- Mən bilirəm onlar hara gediblər, - deyə qız dilləndi.

Lenni qıza baxdıqca heyran olurdu. Kandi və Kruks ona təəccüb dolu nəzərlərlə baxırdılar.

- Madam ki, bilirsən, onda Kölini bizdən niyə soruşursan? – Kruks soruşdu.

- Gülməli şeydi, - o güldü.

Bir qədər dayandıqdan sonra Kruks dedi:

- Yaxşı olardı ki, öz evinə gedəsən.

- Mən ki, heç kimə mane olmuram. İstəyirəm kiminləsə söhbət edim, məgər mən bütün günü evə bağlanıb qalmalıyam?

- Sənin ki, ərin var, sən ətrafdakı oğlanlarla söhbət etməli deyilsən, - Kandi dedli:

- Əlbəttə, - deyə qız təsdiq etdi, - mənim ərim var, hamınız onu görmüsünüz. Əntiqə oğlandır, elə deyilmi? O, bütün vaxtını xoşlamadığı oğlanlara nə edəcəyindən danışır. O, heç kəsi xoşlamır. O, mənə xoşlamadığı adamları necə döydüyündən danışır.

Onun düzdür, əli əzilib, deyir ki, maşın əzib. Boş şeydir, keçib gedəcək.

- Maşın əzib, - deyə Kandi təkrar etdi.

- Yaxşı, siz necə fikirləşirsiniz, mən uşağam hə? Hələ onu deyim ki, şənbə gününün axşamı hamı öz işindəydi, mən də bir dəstə yük daşıyan zəncilərlə söhbət edirdim. Deyirdim ki, onlar qoyundurlar və bundan başqa ayrı şey deyillər.

Lenninin ağzı yarı açılmış halda ona baxırdı. Kruksun üzündə dəhşətli bir əksiklik ifadəsi hiss olunurdu. Qoca Kandi də qızın danışığından təsirlənmiş kimi başını aşağı salmışdı.

O acıqlı-acıqlı dedi:

- Daha bəsdir, sən bizi qoyun da adlandıra bilərsən. Sən hətta həyətdəki toyuqlarla bizim aramızda bir fərq qoymursan, bilmirsən ki, biz özümüz üçün bir malikanə almışıq. Biz burada qalmayacağıq, çıxıb gedəcəyik öz evimizə. Bizim özümüzün toyuq-cücəmiz, meyvə ağaclarımız var ki, yüz dəfə buradan gözəldir. Bizim hətta dostlarımız da var.

Kölinin arvadı ona gülərək:

- Boş şeydir, mən çox oğlanlar görmüşəm elə deyiblər. Sizin kimilərini çox görmüşəm, tanıyıram.

Kandinin üzü həyəcandan qıpqırmızı qızarmışdı. O, dedi:

- Biz bilirik nə almışıq və bizim üçün fərqi yoxdur ki, sən bunu biləsən, ya bilməyəsən. Biz sənə heç nə demirik. Bəlkə indi çıxıb gedəsən, çünki Köli xoşlamaz ki, burada-anbarda «qoyunlarla» söhbət edəsən.

O yenə də otaqdakıların üzünə baxdı. Hamı onun getməyini istəyirdi, lakin o Lenniyə uzun müddət baxdıqdan sonra soruşdu:

- Üzündəki əziklər hardandır?

- Kimi deyirsən, məni? – Lenni soruşdu.

- Bəli, səni deyirəm.

Lenni kömək üçün Kandiyə baxdı. Kandi dedi:

- Onun üzünü maşın əzib, əgər bilmək istəsən.

Qüz güldü və dedi.

- Yaxşı… mən səninlə sonra söhbət edərəm. Mənim maşınlar xoşuma gəlir.

Kandi dözə bilməyib yenə dilləndi:

- Sənin bu oğlanla işin yoxdur. Sən nə dediyini Corca deyəcəm. O, Lennini səninlə söhbət etməyə icazə verməz.

- Corc kimdir? Səninlə gəzən o balaca oğlanı deyirsən? – o soruşdu.

- Hə, özüdür ki, var. mənə dovşan saxlamağa icazə verən həmin oğlandır, - deyə Lenni cavab verdi.

- Əgər istəyirsinizsə, mən sizə dovşan verə bilərəm, özü də bir cüt.

Bu zaman Kruks ayağa qalxdı və soyuqqanlıqla dedi:

- Mənim kifayət qədər varımdır və sənin zəncinin otağına girməyə haqqın yoxdur. Sən ətrafdakıları da korlayırsan. İndi isə çölə çıx, cəld ol. Əgər çıxmasan, sahibdən xahiş edəcəyik, səni bir də anbara gəlməyə qoymasın.

- Qulaq as, zənci, bilirsən sənə nə edərəm?

Kruks ona ümidsiz halda baxdı, sıxıldı və alçaq səslə dedi:

- Bilirəm.

- Hə, onda yerində sakit otur.

- Bilirəm, - deyə o təkrar etdi.

Bir müddət Kölinin arvadı onun qarşısında dayanıb onu gözlədi ki, bir söz desin, amma Kurks bir söz demədi. O, Kandiyə və Lenniyə baxdı. Kandi dedi:

- Əgər sən bir şey etsən, onda biz Kruksa hədə qorxu gəldiyini deyəcəyik.

- Deyirsiniz deyin, heç kəs sizə qulaq asmayacaq, heç kəs.

Kandi o tərəf- bu tərəfə gəzişdi və sonra dedi:

- Mən oğlanların səsini eşidirəm, deyəsən Corc gəldi.

Sonra Kandi Kölinin arvadına tərəf çevrilərək:

- Yaxşısı budur evə gedəsən. İndi getsən Köli sənin burada olduğunu bilməz.

- Mən heç bir səs eşitmirəm, - qız dedi.

- Yaxşısı budur, imkanı əldən verməyəsən, - deyə Kandi yenə təkrar etdi.

Qız üzünü Lenniyə tutaraq:

- Mən çox şadam ki, Köliyə məndən şikayət edəcəksiniz. Mən özüm bəzi vaxtlarda istəyirəm ki, məndən şikayət etsinlər, - dedi və geriyə dönərək gecənin qaranlığında yox oldu. Onun ayaq səslrinə anbardan atlar kişnədi. Kruks soruşdu:

- Oğlanların gəlməyi düzdür?

- Ola bilsin ki, gəliblər, mən səslərini eşitdim.

- Mən heç nə eşitmədim.

- Bilirsənmi, qapı taqqıldadı, ona görə deyirəm ki, gəldilər, - Kandi dedi.

- Bəlkə siz gedəsiniz. Mən daha sizin burada qalmağınıza razı deyiləm.

Bu zaman bayırdan Lennini çağırmağa başqladılar.

- Lenni haradasan?! Sən anbardasan?!

- Bu Corcdur, - deyə Lenni qışqırdı, - mən buradayam, Corc!

Bir saniyə keçmədi ki, Corc qapıda dayandı. O, narazı halda soruşdu:

- Burada nə edirsiniz, siz burada olmamalısınız, axı.

Kruks yerində qımıldandı.

- Elə mən də elə deyirəm, amma gəlirlər.

- Niyə onları vurub çıxarmırsan?

- Mən özüm fikir vermirəm, Lenni yaxşı yoldaşdır, bilirsənmi… Kruks dedi.

Kandi ayağa qalxaraq dedi:

- Hə, Corc, mən də bütün günü hesablamışam ki, bizə nə qədər pul lazımdır.

- Mən sizə dedim ki, heç kimə deməmişik, - deyə Corc açıqlandı.

- Kruksdan başqa heç kəsə deməmişsiniz, - Kandi dedi.

- Aman Allah, sizdən bir dəqiqə ayrılıb bir yerə getmək olmur, dərhal başlayırsınız.

Kandi və Lenni otaqdan bayıra çıxdılar. Kruks Kandini çağırdı.

- Hə, nə deyirsən? – Kandi soruşdu.

- Mən sənə dediyimi yaddan çıxarmısan?

- Yadımdadır. Necə bəyəm?

- Elə isə yadından çıxart, mən buranı tərk edib heç bir yerə getmək istəmirəm.

- Nə deyim, özün bilərsən. Gecən xeyrə qalsın.

Hər üçü otaqdan çıxıb gedəndə onların səslərinə atlar kişnədilər. Kruks isə otağında oturub qapıya baxdı, sonra isə çarpayısında uzanaraq xəyala daldı.

Anbarın bir tərəfində ot tayası qoyulmuşdu. Atlar görünsün deyə anbarın yuxarı hissəsi açıq idi.

Bazar günü günorta vaxtı idi. Ac olan atlar otu gördükcə (ayaqlarını) təpiklərini yerə vurur və kişnəyirdilər.

Təkcə Lenni anbarda oturub ölmüş küçüyünə baxırdı. O, uzun müddət baxdıqdan sonra əli ilə ona toxunaraq dedi:

- Nə üçün ölmüsən, hə? Sən ki, siçan kimi balaca deyilsən. Deyəsən Corc məni dovşan saxlamağa qoymayacaq, mən səni saxlaya bilmədim.

O, balaca bir quyu qazdı, küçüyü ora qoyub üstünü örtdü və öz-özünə dedi:

- Mən Corca deyəcəm ki, gəlib gördüm ölüb.

Birdən o basdırdığı küçüyü qazıb çıxartda və ona təəssüflə baxdı və əlavə etdi:

- Mən bilirəm, Corc deyəcək ki, bunu sən etmisən, elə ona görə də səni dovşan saxlamağa qoymayacağam.

Hirsindən dəli kimi olmuş Lenni küçüyə yenə də əli ilə toxunaraq:

- Sən niyə öldün?! Sən ki, siçan kimi balaca deyilsən? Corc məni dovşan saxlamağa qoymayacaq.

Lenni ayağa qalxdı, küçüyü geriyə – otun üstünə qoydu. O, ətrfada gəzən Kölinin arvadını görmürdü. Qız yenə özünün pambıq parçadan tikilmiş qırmızı paltarını geyinmişdi. O, kosmetikadan istifadə etmiş və saçlarını rəngləmişdi. Lenni onu görcək sakitləşdi.

- Burada niyə durmusan? – qız soruşdu.

Lenni ona etinasız surətdə baxaraq dedi:

- Corc mənə tapşırıb ki, səninlə söhbət etməyim.

- Corc qorxur ki, Köli bunun üçün dəli olar, hə? Sən Kölinin başqa qolunu da sındırarsan. Onun qolunu heç də maşın sındırmayıb.

- Yox, yox mən səninlə söhbət etməyəcəyəm, - deyə Lenni təkid etdi.

Qız onun yaxınlığına gəlib dedi:

- Qulaq as, hamı çıxıb gedib işləməyə. Mən səninlə nə üçün danışa bilmərəm? Bir kimsə yoxdur ki, söhbət edim, yalqızlıq lap məni boğur.

- Yox, yox, mən səninlə söhbət etmək niyyətində deyiləm.

- Mən təkəm, siz oğlanlar hamıyla söhbət edə bilərsiniz, amma mən isə yalnız Köli ilə söhbət etməliyəm?

- Mən səninlə söhbət etməyə, düzü güman etmirəm, çünki, Corc məni qorxudub.

Birdən qız söhbəti dəyişərək soruşdu:

- Ora qoyduğun nədir elə?

- Mənim küçüyümdür. Mənim balaca itim.

- Niyə ölüb?

- Mən onunla oynayırdım. O, əlimi dişləmək istəyirdi ki, onu sillə ilə vurdum, bir də gördüm öldü.

- Başqasını taparsan, o qədər küçük var ki…

- Hələ bu harasıdır. Corc məni dovşan saxlamağa qoymayacaq, çünki, mən o qədər pis işlər görmüşəm ki.

Qız daha da yaxın gəldi və sakit-sakit danışmağa başladı.

- Mənimlə danışdığına narahat olma.

- Əgər Corc məni səninlə danışan görsə, onda məni öldürəcək.

- Bura bax, mənə nə olub, məgər mənim heç kiminlə danışmağa hüququm yoxdur? Mənim haqda nə fikirləşirsən ki? Sən yaxşı oğlansan. Bilmirəm səninlə niyə danışmamalıyam. Məgər sənə bir zərər yetirirəm?

- Hə, Corc deyir ki, sən bizi korlayacaqsan.

- Belə de, gör mən sizə necə zərər yetirirəm?!

- Mən belə yaşaya bilmərəm. Özüm bilərəm necə yaşayıram. Hələ vaxtı ilə aktyorlardan biri dedi ki, kinoda çəkilə bilərəm, amma qoca anam icazə vermədi. Əgər getsəydim deməli, başqa cür adam olmuş olardım, hə?

Lenni ayağa qalxdı, dərindən ah çəkib söhbətə başladı:

- Biz balaca bir yer alacağıq, bizim dovşanlarımız da olacaq.

Qız onun söhbətini eşitməmiş kimi öz söhbətini davam etdi.

- Mən bir oğlanla tanış olmuşdum, o kinoya çəkilmişdi. Biz birlikdə rəqsə getdik. O, mənə söz verdi ki, kinoda çəkilməyimə kömək edəcək və dedi ki, mən əsil artistəm. Sonralar o Hollivuda getdi, o mənə bu

haqda yazacaqdı. Qız arabir Lenniyə fikir verirdi ki, görsün onun sözlərindən təsirlənirmi. O, dedi:

- Mən heç vaxt məktub ala bilmədim, elə fikirləşdim ki, onun məktubunu qoca anam gizlədir. Mən anamdan məktubları harada gizlətdiyini soruşdum, o isə gizlətdiyini bildirdi. Mən, Köliylə sonralar tanış oldum və ona ərə getdim. Mən onunla başqa vaxt rəqsə gedəndə tanış olmuşdum.

Birdən qız Lennidən soruşdu:

- Sən heç mənə qulaq asırsan?

- Mən? Əlbəttə!

- Mən bunu əvvəllər heç kəsə danışmamışam, - deyə qız söhbətini davam etdirdi, - ola bilsin elə indi də danışmamalıyım. Düzü mən Kölini xoşlamıram, o, yaxşı yoldaş deyil, - qız Lenniyə daha yaxın oturdu, kinoda çəkilsəydim yaxşı paltarlar geyərdim, böyük-böyük mehmanxanalarda olardım. Mən hələ radioda danışmağımı demirəm.

Qız yerində bir-neçə cestlər etdi. O, Lenniyə göstərmək istəyirdi ki, güya onun aktrisalıq bacarığı var. Lenni dərindən nəfəs aldı və dedi:

- Bəlkə bu küçüyü aparıb uzağa atım, Corc onun öldüyünü bilməsin, yoxsa məni dovşan saxlamağa qoymaz.

Qız dedi :

- Dovşanlardan başqa ayrı şey fikirləşə bilmirsən?

- Bilirsənmi, bizim balaca yerimiz olacaq. Evimiz, bağımız, dovşanlarımız üçün otağımız olacaq, mən də həmişə otlaqdan dovşanlar üçün ot gətirəcəyəm.

- Səni dovşanları sevməyə vadır edən nədir ki, belə? – qız soruşdu.

Lenni onun sualına cavab verməzdən əvvəl bir az fikirləşdi, sonra isə dedi:

- Mən xoşuma gələn şeyləri tumarlamaq istəyirəm. Bir dəfə uzun tüklü dovşanları görmüşəm, onlar çox qəşəng idilər. Mən hətta bir şey tapa bilməyəndə siçanları belə tumarlayıram.

Onun bu sözlərini eşidəndə qız ondan bir az aralandı və dedi:

- Mən elə fikirləşirdim ki, sən çətin adamsan, amma görürəm qayğıkeşsən. Böyük olmağına baxmayaraq, lap uşaq kimisən. Mən saçlarımı tez-tez düzəldirəm ki, cod olmasın. Götürək Kölini, onun saçı tamamilə coddur, amma mənim saçım hamardır. Bir bax, - deyə o Lenninin əlini götürüb saçlarına apardı, - hə, necədir, qarmaqarışıqdır. Hə…?

- Yox, lap qəşəngdir.

- Bura bax, deyəsən sən saçlarımı dağıdacaqsan ha! Dayan görüm, - deyə qız uca səslə etiraz etdi, burax görüm, tez…

Lenni onun səsini bərk çıxdığını görüb əli ilə qızın ağzına tutdu və yalvarmağa başladı.

- Səndən xahiş edirəm, qışqırma, yoxsa Corc gəlib eşidər və deyər ki, yenə pis iş görmüşəm.

Qız Lenninin sözlərinə məhəl qoymayıb uca səslə danışırdı. Bu zaman Lenni acıqlandı:

- Mən istəmirəm ki, sən qışqırasan, əgər Corc eşitsə mənə cəza verəcək, eşidirsən, belə etmə…

Qız qışdırdıqca Lenni ona yalvarırdı. Birdən Lenni onu möhkəm sıxdı və dərhal qızın səsi kəsildi. Lenni dedi:

- Mən səni incitmək istəmirdim. Sən qışqırırdın, əgər bunu Corc eşitsə bilirsən neyləyər?!

Qızın beli sındığından sakit və hərəkətsiz qalmışdı. Lenni qızın əlini qaldırıb buraxanda onun əli yerə düşdü. Lenni öz-özünə deyinməyə başladı.

- Mən yenə də pis iş gördüm, aman Allah, mən başqa bir pis iş gödüm.

Lenni onun üstünü otla ortdü. Bayırda adamların səsi gəlirdi. O, tayanın başqa bir tərəfinə çəkilib öz-özünə qımıldandı.

- Mən doğrudan da, pis iş gördüm. Mən bunu etməyəcəkdim. Corc bunu eşitsəydi dəli olacaqdı.

Lenni geri qayıdıb ölmüş qıza bir də baxdı. Ölmüş küçük onunla yanbayan qalmışdı. O, küçüyü paltosunun altına qoydu və uzağa tullamağı qərara aldı. Qızın üstü yarı örtülü idi. O, çox gözəl sadə, suyu şirin və gənc görünürdü. Onun qırmızı dodaqları, qırmızı yanaqları onu canlı göstərirdi.

Bir qədər uzaqda adamların açıq-aydın səsi eşidilirdi. Bu səslərin içərisindən qoca Kandinin də səsi gəlirdi, - Lenni, Lenni, - deyə çağırırdı.

O, anbarda Lennini görcək dedi:

- Hə, Lenni buradasan. Mən yenə də hesabat aparırdım. Nə etmək istədiyimizi sənə deyəcəyik, Lenni.

Qoca Kandi yenə Lenninin adını çəkə-çəkə ona yaxınlaşdı, - mən bilmədim ki, Köllinin arvadı da buradadır, - dedi. Elə ki, qızdan səs çıxmadığını gördü, dedi:

- Sən elə burda yatmısan?

Qoca onu hərəktsiz görcək tullanıb, düşdü, - aman allah, dedi və qaçıb getdi.

Anbarda atlar kişnəyir və arabir ot yeyirdilər. Bir neçə dəqiqədən sonra qoca Kandi Corcla birlikdə qayıtdı.

- Mənə nəyi göstərmək istəyirdin?- Corc soruşdu.

Kandi Kölinin arvadını göstərdi. Corc ona yaxınlaşqdı, ona nə olub? – deyə soruşdu,- aman allah, bir buna bax!

O, dizi üstə oturdu, əllərini ürəyinin üstünə qoydu və ayağa qalxdı.

Qoca Kandi soruşdu:

- Buna nə edib görəsən?

Corc ona soyuq nəzərlərlə baxdı və soruşdu:

- Sənin fikrincə necə olub?

- Mən nə bilim, - deyə Kandi cavab verdi.

- Bunu o qanmaz edib, mən indi bildim.

- Bəs nə edəcəyik, Corc?

Corcun cavab verməyi çox uzun çəkdi, nəhayət, dilləndi.

- Bura bax, biz onu oradakı oğlanlara deməliyik. Bəs Lenni nə edəcək. O çalışırdı ki, özünü doğrultsun. Bəlkə ona dəyməyəcəklər.

- Biz onu buraxmalıyıq çıxıb getsin. Sən Kölini tanımırsan, Corc? Koli  onu öldürəcək. Corc Kandinin əsən dodaqlarına baxdı və dedi:

- Hə, düzdür, başqa oğlanlar da öldürər.

Kandi qoxmuş kimi Corca dedi:

- Sən və mən balaca bir yer ala bilərik, eləmi Corc? Biz təzə yerimizə gedər və orada yaxşı yaşayarıq, elə deyilmi, Corc?

Hə nə deyirsən bacarırıqmı, Corc?

Corc kobudluqla bildirdi.

- Mən əvvəl gündən bilirdim ki, o qız bizə nə isə edəcək. Mən bir ay işləyib əlli dollar alacağam. Əgər mümkün olsa, bir ay da işləyib daha əlli dollar qazanacağam.

- Deyirəm, Corc, Lenni çox yaxşı yoldaşdır. Mən heç vaxt fikirləşməzdim ki, o belə iş görər.

Corc Kölinin arvadına baxa-baxa dedi:

- Lenni bunu heç vaxt boş yerə etməz.

Necə olursa o həmişə pis işlər görür. Hə, qulaq as, biz oğlanlara bunu deməliyik. Oğlarlar elə fikirləşərlər ki, mən də burada olmuşam. Mən indi otağa gedirəm, bir-iki dəqiqədən sonra sən gəlib qız haqqında otaqdakılara deyərsən. Mən onlarla gələcəyəm və elə bil mən onu heç görməmişəm. Oğlanlar fikirləşməyəcəklər ki, mən orada olmuşam, bildinmi?

- Yaxşı, Corc, başa düşdüm.

- Onda mən gedirəm, iki dəqqədən sonra qaça-qaçı gəlib bizə xəbər verərsən.

Beləliklə, Corc çıxıb getdi, qoca Kandi Corcun arxasınca baxdı. Onun gözləri yaşla dolmuşdu. O anbardan çölə çıxdı. Otağa girəndən bir-iki dəqiqə sonra hay-küyə başladı. Bunu eşidən Slim, Karlson, Vit, Köli və Kruks qocaya tərəf yüyürdülər. Ən axırda isə Corc gəlirdi. Onlar anbarda Kölinin arvadını gördükdə dayandılar. Slim ona yaxınlaşıb, əliylə yanağına toxundu, lakin hər şeyin bitdiyini bildirdi. Köli qışqırtı ilə dedi:

- Mən bilirəm, bilirəm bunu kim edib! O, yekəpəl edib, bunu! Hamı çöldə işləyirdi, təkcə o yox idi. Mən onu bu saat tapıb öldürəcəyəm.

- Mən onu öz pistoletimlə öldürəcəyəm, - deyə Karlson onun sözünə qüvvət verdi. Slim dedi:

- Mənə də elə gəlir ki, bunu Lenni edib. Onun beli sınıb, bunu yalnız Lenni edə bilər.

Corc heç bir söz  demirdi, onun şlyapası gözlərinin üstünə düşmüşdü və gözlərini ötmüşdü.

Slim sözünə davam edərək dedi:

- O, gərək ki, cənub tərəfə getsin. Biz özümüz şimal tərəfdən gəldik, amma o cənuba tərəf getmiş olar. Mənə elə gəlir ki, biz onu tapa bilərik.

Bu zaman Corc ona yaxınlaşdı və dedi:

- Biz onu tapa bilməsək də onsuzda onu tapıb həbs edəcəklər.

Əgər biz Kölini saxlaya bilsək, onu tapıb gətirə bilərik. Amma Köli onu güllə ilə öldürmək istəyir. Bu saat Lennini dəli kimi axtarır. Onu gətirib qəfəsə salıb saxlamaq da yaxşı deyil, Corc.

- Bilirəm, bilirəm, - deyə Corc dərindən nəfəs alaraq onun sözlərini təsdiq etdi:

Uzaqdan Karlson onlara tərəf qaça-qaça gəldi və təngnəfəs halda dedi:

- Bu avara mənim pistoletimi də oğurlayıb, onu tapa bilmədim.

Onlar bir-birinin üzünə baxdılar və pistoleti götürmədiklərini bildirdilər. Köli həyəcan içərisində dedi:

- Elə isə gedib polisə xəbər verək. Hə, Corc, bizimlə gedərsənmi? – Köli soruşdu.

- Hə, mən də gedəcəyəm, amma qulaq as, Köli o, yazıqdır. Onu öldürməyin. O, nə etdiyini bilmir.

- Onu öldürməyim? O hələ Karlsonun pistoletini oğurlayıb, yox, onu mütləq öldürəcəyəm.

- Bəlkə Karlson öz pistoletini itirib? – Corc soruşdu.

Onlarla yanbayan dayanmış Karlson dedi:

- Necə yəni, mən onu bu səhər görmüşəm. Yox, onu götürüblər.

Slim hələ də Kölinin arvadına baxırdı. O dedi:

- Bəlkə, Köli, sən öz arvadının yanında qalasan.

Kölinin sifəti qızardı və dedi:

- Yox, mən gedirəm və özüm onu öldürəcəyəm, baxmayaraq ki, bir qolum sınıqdır.

Slim Kandiyə tərəf çevrildi və dedi:

- Elə isə sən burada qal, Kandi, qalanlarımız isə gedək.

Onlar yola düşdülər. Corc Kandinin yanında dayanıb ölmüş qıza baxdı. Bu zaman Köli Corcu çağırdı.

- Corc, harada qaldın?!

Corc onların ardınca addımlamağa başladı. Kandi isə qızın yanında qalıb öz-özünə deyinirdi.

Yola düşənlər get-gedə gözdən itdilər.

Anbar qaranlıqlaşırdı. Qoca Kandi otun üstündə oturub əlləri ilə qızın gözlərini örtdü.

xxxxx

Salinas çayının göy rəngə çalan suyu axşamüstü sakit axırdı. Qabilan dağlarının arxasından boylanan günəşin şüaları dərələrin, təpələrin üstünü çəhrayı rəngə boyamışdı. Kölgələr get-gedə uzanırdı. Suilanı suyun üzərində bir tərəfdən o biri tərəfə üzürdü. Zəif əsən külək ağacların yarpaqlarını tərpədir, arabir saralmış və qurumuş yarpaqlar axan çayın üzərinə tökülürdü.

Çayın kənarında kolların arasından Lenni peyda oldu. O, ehmalca çayın kənarına gəlib su içməyə başladı.

Su içib qurtardıqdan sonra suyun kənarında dizlərini qucaqlayaraq oturdu və öz-özünə dedi:

- Mən yadımdan çıxartmamışam. Corc mənə demişdi ki, əgər çətinliyə düşsən, gəlib kolların arasında gizlənim.

O başını qaldırıb dağın başına baxdı:

- Mən düz ora gedib, orada mağara tapa bilərəm, amma mən tomatlı konserv yeyə bilmədim. Əgər Corc mənə icazə versəydi, çıxıb gedərdim və özümə mağara tapardım. Onda mən bir daha Corca əziyyət vermərəm. Çox adam deyir ki, mən guya Corca iplə bağlamışam və birgə gəzirəm. Mən indi çıxıb gedə bilərəm, çünki, Corc məni dovşan saxlamağa qoymayacaq.

Lenninin fikrindən Klara xalası da gəlib keçdi, sanki Klara xala deyirdi: sən ağılsız adamsan, yaxşısı budur ki, dovşanları fikrindən çıxarasan, qoy onlar aç qalsınlar təki sən onlara yaxınlaşma.

- Mən yaddan çıxaracağam, - Lenni uca səslə dedi, - mənə elə gəlir ki, Corc dovşan saxlamağa qoymayacaq.

Yox, Corc belə etməz, çünki mən Corcu tanıyıram. O mənə qarşı yaxşıdır, mən ona inanıram. Biz həmişə bir yerdə gəzirik, o belə etməz.

O, əllərini ağzına tutub, - Corc, Corc, deyə çağırmağa başladı. Bu zaman onu axtaran Corc yavaşca kolun arxasından çıxdı. Lenni isə yenidən dovşanlar haqqında fikirləşməyə başladı. Corc sakit tərzdə dedi:

- Niyə belə qışqırırsan?

Lenni ayağa qalxdı.

- Sən məni tərk etmək istəyirsən, eləmi Corc? Məncə, yox.

Corc onun lap yanına gəldi və aşağı oturdu.

- Yox, Lenni.

- Mən bilirdim ki, məni tərk etməzsən.

Corc sakit dayanmışdı. Lenni onu çağırmağa başladı. Corc dedi:

- Nə deyirsən?

- Mən başqa bir pis iş görmüşəm.

- Eybi yoxdur.

Günəşin şüası yalnız dağın başında bilinirdi. Kölgələr daha uzun və qaranlıq idi. Uzaqdan adamların səs-küyü bir-birlərinin çağırdıqları eşidilirdi. Corc uzaqdan eşidilən çağırtılara qulaq asırdı.

- Corc, - deyə Lenni müraciət etdi.

- Hə, nə deyirsən?

- Mənə cəza verəcəksən, hə?

- Sənə cəza verəcəyəm? Yox, Lenni – deyə Corc əlləri ilə başını tutdu və sözünə davam etdi, - mən tək olsaydım rahat yaşayardım, mənim işim olardı.

- Davam elə, Corc, sonra

- Mənim evim olardı…

Corc söhbət edərkən birdən dayandı. Lenni onun dayandığını görüb soruşdu:

- Sən mənə cəza verəcəksənmi, Corc?

- Yox, Lenni.

- Onda mən çıxıb gedə bilərəm. Mən düz o təpələrin arasında bir mağara taparam, əgər sən məni istəyirsənsə.

- Yox, mən istəyirəm ki, sən mənimlə qalasan.

- İndi isə başqa oğlanlar və özümüz haqda danış, Corc.

- Bizim oğlanların nə ailəsi var, nə də dünyada bir kəsi.

- Amma biz isə elə deyilik. İndi özümüz haqda danış, Corc.

Corc bir an sakit dayanıb sonra dedi:

- Amma biz yox, biz belə deyilik, çünki… Mən səni özümlə birlikdə gəzdirirəm.

Zəif əsən külək çayın suyunu azacıq dalğalandırırdı. Adamların səs-küyü, qışqırtısı yenə eşidilirdi. Onların səsi bu dəfə lap yaxından eşidilirdi.

Corc şlyapasını başından çıxartdı və dedi:

- Sən də şlyapanı götür, Lenni hava çox yaxşıdır.

Lenni şlyapasını çıxartdı və qarşısına qoydu. Corc yenə də uzaqdan gələn səslərə qulaq asırdı.

- Bir çaya bax, Lenni

Lenni çaya baxdı və qaranlıqlaşmış Qabilan dağlarının ətəklərinə göz gəzdirdi.

- Biz balaca bir yer alacağıq, bizim yerimiz olacaq, Lenni, - deyə Corc cibindən Karlsonun pistoletini çıxartdı. Lenni pistoleti görmürdü. Bir adamın səsi lap yaxında eşidilirdi. Başqa birisi isə onu çağırırdı.

- Davam elə, Corc – deyə Lenni xahiş etdi.

Corc əlindəi pistoleti ona tuşladı, amma əli yanına düşdü.

- Hə, bizim inəyimiz, toyuq-cücəmiz də olacaq. Hətta dovşanlarımız üçün də otağımız olacaq.

- Dovşanlar üçün, - deyə Lenni Corcun bu sözlərini uca səslə təkrar edərək əlavə etdi, - mən dovşanlara baxacağam. Bəs bizim torpağımız harada olacaq, Corc?

- Çayın kənarı boyunca, bax, bax orada olacaq.

Lenni gözəlirin çayın kənarı boyunca gəzdirməyə başladı. Corc əlindəki pistoletə baxdı. Yaxınlıqda – kolların arasında ayaq səsləri eşidilirdi. Corc çevrilərək səs gələn tərəfə baxdı.

- Davam elə, Corc, biz torpaqları nə vaxt alacağıq?

- Tezliklə alacağıq, Lenni.

- Sən, bir də mən, eləmi Corc?

- Əlbəttə, heç kim səni incitməyəcək.

- Mən elə fikirləşirdim ki, sən məni cəzalandıracaqsan, Corc.

- Yox, yox, - Corc dedi, - mən heç vaxt, Lenni.

Səslər indi lap yaxınlıqdan gəlirdi. Lenni ona yalvarmağa başladı:

- Elə isə Corc, gəl indi gedək.

- Yaxşı, gedək.

Lenni irəlidə addımlayırdı. Arxada gedən Corc pistoleti qaldırdı və Lennini tuşlayaraq atəş açdı. Lenni bir anlıq da olsa dəhşətli bir səs çıxartdı, heç bir hərəkət etmədən qumun üstünə yıxıldı.

Corc əsməyə başladı. O, əlindəki pistoletə baxdı və onu yerə atdı. Kolluqda səslər bir-birinə qarışdı. O, daha yaxınlıqda Slimin səsini eşitdi. O, Corc, - deyə çağırırdı. Corc isə çayın sahilində oturub güllə atdığı sağ əlinə baxırdı. Bir qrup adam gəlib onu gördü, Köli də orada idi. O, Lennini qumun üstündə uzanmış görüb Corca dedi:

- Düz başının arxasından…

- Eybi yoxdur, Corc, - deyə Slim onu dilə tutdu, hərdənbir lazım gəlir.

Corcun qarşısında dayanmış Karlson soruşdu:

- Bunu necə etdin, Corc?

Corc pistoleti götürərək cavab verdi:

- Bununla…

- Mənim pistoletimi o götürmüşdü?

- Hə, o götürmüşdü.

- Ondan alıb, onu öldürdün, eləmi Corc?

- Hə…

Corcun səsi çıxmır, elə bil ki, pıçıldayırdı. O, hələ də sağ əlinə baxırdı. Slim əli ilə onun kürəyinə vurub dedi:

- Gəl gedək, Corc, gedək bizimlə bir az içək, fikir eləmə…

O, Corca ayağa qalxmağa kömək etdi.

- Hə, gedək içək, - Corc dedi:

- Əlbəttə, - deyə Slim Corca yolu tapmaqda kömək etdi. Hələ də Lenninin yanında olan Köli və Karlson onların arxasınca baxdılar. Karslon dedi:

- Hə, bu iki oğlan barəsində nə fikirləşirsən?

13.500 verməlidir.